15 aprel 2022 №29 (1902)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## “Digər azad edilmiş torpaqlarla yanaşı Şuşanın bərpası prioritet olmalıdır”

Azad edilmiş torpaqları yüz faiz öz gücümüzə bərpa edirik. Xarici şirkətləri dəvət etmişik. Onlar orada podratçı kimi işləyir. Amma bu günə qədər heç kimdən bir manat almamışıq. Bunu xüsusilə qeyd etmək istəyirəm. Çünki adətən belə qanlı müharibələrdən, belə dağıntılardan sonra donor konfransları, beynəlxalq təşkilatlar yığışır və bərpa planı icra edilir.

Prezident İlham Əliyev bu sözləri aprelin 12-də ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə çıxışı zamanı deyib.

Dövlət başçısı xatırladıb ki, İkinci Dünya müharibəsindən sonra ABŞ tərəfindən Avropa ölkələrinin bərpası üçün böyük maliyyə yardımını nəzərdə tutan “Marşal planı” həyata keçirildi: “Əgər Amerika Avropanı bərpa etmək üçün bu planı tətbiq etməsəydi, Avropa öz gücünə öz potensialını bəlkə də 50 ilə bərpa edə bilərdi. Digər münaqişələrlə bağlı beynəlxalq fondlar maliyyə yardımı göstərirlər. Bizə isə heç kim heç bir yardım göstərmir, nə işğal dövründə, nə də sonra. Hətta ölkələrin əksəriyyəti işğalı işğal kimi adlandırmaq istəmirdilər. Mənim yadımdadır, işğal dövründə beynəlxalq təşkilatlardakı fəaliyyətimiz, eyni zamanda, ikitərəfli formatda apardığımız danışıqlar əsnasında biz güc-bəla ilə, zorla ölkəmizin ərazi bütövlüyü prinsipini o bəyannamələrə saldırırdıq. Bir çoxları imtina edirdi. Halbuki bu, gün kimi aydın idi, kim işğalçıdır, kim işğala məruz qalan ölkədir. İkili standartlar, ədalətsizlik, bax, budur. Biz bunu bu gün də görürük...”.

davamı səh. 2-də

## Rauf Hacıyevin 100 illik yubileyi qeyd ediləcək

2022-ci ilin may ayında görkəmli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti Rauf Soltan oğlu Hacıyevin anadan olmasının 100 illiyi tamam olur. Prezident İlham Əliyev aprelin 13-də Rauf Hacıyevin yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Rauf Hacıyev rəngarəng yaradıcılıq palitrasına malik sənətkar kimi Azərbaycanın musiqi mədəniyyəti tarixində özünəməxsus yer tutur. Müxtəlif janrlarda əsərlər, o cümlədən simfoniya, oratoriya və kantatalar ərsəyə gətirən bəstəkara uğurlu səhnə təcəssümü tapmış operettaları xüsusilə geniş şöhrət qazandırıb. Rauf Hacıyevin milli motivlərlə müasir üslubun vəhdətində yaratdığı vətənpərvər ruhlu lirik mahnılar məşhur ifaçıların repertuarına daxil olub və Azərbaycan mahnı janrının inkişafında əhəmiyyətli rol oynayıb. Rauf Hacıyev respublikanın mədəni həyatında yaxından iştirak edib və səmərəli ictimai fəaliyyəti ilə tanınıb.

Sərəncamda Mədəniyyət Nazirliyinə Xalq artisti Rauf Hacıyevin 100 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

## Yerlərdə mədəni fəaliyyət günün tələblərinə cavab verməlidir

### Mədəniyyət naziri Quba rayonunda müəssisələrin işi ilə tanış olub

Mədəniyyət Nazirliyi sistemində fəaliyyətin və idarəçiliyin təkmilləşdirilməsi kontekstində regionlardakı mədəniyyət müəssisələrində işin effektivliyinin artırılması da önəm kəsb edir. Bu məqsədlə bölgələrə səfər planı hazırlanıb.

Xatırladaq ki, mədəniyyət naziri Anar Kərimov fevral ayında qərb bölgəsinə səfər edərək, Gəncə və Şəmkirdə mədəniyyət ocaqlarına baş çəkmiş, mart ayında isə Lənkəran və Astarada mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olmuşdu.

Aprelin 14-də mədəniyyət naziri Quba rayonuna səfər edib.

Nazir Anar Kərimov və rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev Quba şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə çiçək dəstələri düzüblər.

Sonra mədəniyyət naziri və icra başçısı Quba rayon Heydər Əliyev Mərkəzinə gəliblər. Mərkəzin fəaliyyəti ilə tanışlıq zamanı bildirilib ki, dördmərtəbəli bina 2011-ci ildə inşa edilib. Mərkəz ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin öyrənilməsi və təbliği işini həyata keçirir. Burada müxtəlif tədbirlərin keçirilməsi üçün hər cür şərait var.

Anar Kərimov və Ziyəddin Əliyev Bəşir Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzinə gələrək burada yaradılan şəraitlə tanış olublar. Məlumat verilib ki, mərkəz 2015-ci ildə Quba rayon Mədəniyyət evinin bazasında yaradılıb. Mərkəzin tabeliyində fəaliyyət göstərən Yeni



Güləzi Folklor klubunun “Bizim nənələr” folklor kollektivinin ifasında musiqi nömrəsi təqdim edilib. Mərkəz tərəfindən hazırlanmış “Quba – multikultural diyar” kitabının təqdimatı keçirilib.

Həmçinin “Şuşa İli” münasibətilə “Şuşamı tərənnüm edirəm” adlı multikultural layihənin təqdimatı olub, folklor qrupunun çıxışı dinlənilib.

davamı səh. 2-də

## Gürcüstan nümayəndə heyəti işğaldan azad olunmuş ərazilərə gedəcək

Gürcüstanın tanınmış mədəniyyət xadimləri, türkoloq və ekoloqlarından ibarət nümayəndə heyəti Azərbaycanda səfərdədir. Səfər Azərbaycanın işğaldan azad edilmiş əraziləri ilə tanışlıq məqsədi daşıyır.

Aprelin 14-də Azərbaycan Milli İncəsənət Muzeyində mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva və Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) rektoru, Xalq artisti, professor Fərhad Bədəlbəylinin nümayəndə heyəti ilə görüşü keçirildi.

Qonaqları salamlayan Sevda Məmmədəliyeva Azərbaycan və Gürcüstanın qədim tarixə və zəngin mədəni irsə sahib olduğunu bildirdi: “Azərbaycan və Gürcüstan uzun əsrlərdir ki, dinc qonşuluq şəraitində yaşayır. Bu gün nümayəndə heyəti arasında mədəniyyət sahəsini təmsil edənlərin olması bizləri sevindirir. Birgə mədəni tədbirlərin təşkili iki ölkə arasında əlaqələrin gücləndirilməsində mühüm rol oynayır”. Nazir müavini həmçinin 30 ilə yaxın sürən işğal dövründə Azərbaycan maddi mədəniyyət nümunələrinə qarşı ermənilər tərəfindən həyata keçirilən vandalizm və 44 günlük Vətən müharibəsində əldə etdiyimiz Qələbə nəticəsində işğaldan azad edilən ərazilərdə aparılan bərpa-quruculuq işləri barədə qonaqlara məlumat verdi.



BMA-nın rektoru Fərhad Bədəlbəyli Azərbaycanın zəngin mədəni irsindən bəhs etdi, qonaqlar üçün unikal musiqi proqramının hazırlandığını diqqətə çatdırdı.

Daha sonra görüş konsert və dialoq şəklində davam etdi. İlk olaraq beynəlxalq müsabiqələr laureatı, Prezident təqaüdçüsü Cəmil Sədizadənin (piano) çıxışı dinlənildi. Sonra muğam triosunun ifasında “Şur” muğamı və “Xudayar təsnifi” səsləndirildi.

Əməkdar artist İlham Nəzərovun vokal ifası qonaqlar tərəfindən maraqla qarşılandı. İ.Nəzərov Fərhad Bədəlbəylinin “Ave Mariya” əsərini ifa edərkən gürcü qonaq, vokal ifaçısı İamze Cakeli bəstəkardan icazə alıb birgə duet ortaqlığı etdi və ifa maraqla qarşılandı.

davamı səh. 2-də




## Vaşinqtonda Azərbaycan üçün xeyriyyə konserti keçiriləcək

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı Səfirliyi və ABŞ-Azərbaycan Ticarət Palatasının təşkilatçılığı ilə mayın 3-də Vaşinqton şəhərində “The Voice of Orchid” adlı xeyriyyə konsertinin keçirilməsi planlaşdırılır.

Tədbirdən toplanan vəsait Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsi işlərinə sərf olunacaq. Bunun üçün “Marshall Legacy İnstitute” vasitəsilə altı minaaxtaran itin alınaraq Azərbaycana göndərilməsi nəzərdə tutulur.

Konsertdə Əməkdar artist, dirijor Fuad İbrahimovun rəhbərliyi ilə Bakı Kamera Orkestri, həmçinin Xalq artistləri Brilliant Dadaşova, Ənvər Sadıqov, Nəzakət Teymurova, Əməkdar artist Abbas Bağırov və digər solistlər çıxış edəcəklər.

## Özbəkistanın Termiz Universitetində Natəvan adına Azərbaycan ocağı

Xəbər verdiyimiz kimi, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə 6-9 aprel tarixində Özbəkistanda Azərbaycan mədəniyyəti günləri keçirilib. Mədəniyyət günlərinin tədbirləri paytaxt Daşkənddən sonra Sırxandarya vilayətinin inzibati mərkəzi olan Termiz şəhərində davam edib.

Termiz Dövlət Universitetində Xurşidbanu Natəvan adına Azərbaycan ocağının açılışı olub. Burada görkəmli şairənin portreti, həyat və yaradıcılığı haqqında məlumat lövhəsi, Şuşa və Qarabağa aid banerlər, rəsm və fotolar yerləşdirilib. Azərbaycan ocağında Qarabağın milli qadın və kişi geyimləri, AMM-in özbək dilində çap etdirdiyi nəşrlər, Azərbaycan Mədəniyyət Nazirliyinin hədiyyə etdiyi kitab kolleksiyası, şair və yazıçılarımızın portretləri, milli suvenirlər də yer alıb.

Sonra Termiz şəhər İncəsənət Sarayında mərasim keçirilib. Vilayət hakimiyyətinin nümayəndəsi Obidjon Şofiyev çıxış edərək Özbəkistanda müntəzəm olaraq Azərbaycan mədəniyyət və ədəbiyyat günlərinin keçirilməsinin xalqlarımızı bir-birinə daha yaxından bağladığını vurğulayıb.

Azərbaycan Milli Məclisi Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Mədəniyyət Nazirliyinin şöbə müdiri Akif Marifli, AMM-in direktoru Samir Abbasov iki ölkə arasında tarixi dostluq və əməkdaşlıqdan söhbət açıblar.



Sonra Azərbaycan mədəniyyəti günləri münasibətilə hazırlanan proqram təqdim edilib. Termiz Dövlət Universiteti tələbələri azərbaycanlı modelyer Afaq İsmayılzadənin hazırladığı milli libasları “Qarabağ şikəstəsi” musiqisinin sədaları altında nümayiş etdiriblər. Xalq artisti Gülyanaq Məmmədova, saz ifaçısı İlham Abdullayev, AMM-in Kövkəb Əliyeva adına “Azərbaycan qızları” rəqs ansamblının çıxışları alqışlarla qarşılanıb.

davamı səh. 8-də

## Hər məhəlləsi tarix çağıran şəhər

Ölkəmizin əksər guşəsində yaşı əsrləri, minillikləri əhatə edən tarixi abidələr mövcuddur. Bütün bunlar xalqımızı torpağa, əcdadlarına bağlayan qırılmaz tellərdir. Azərbaycanın mədəni zənginliklərində böyük payı olan sənət beşiyi Şuşa şəhəri tarixi memarlıq abidələri ilə də xüsusi seçilir.

18 aprel – Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ərəfəsində 270 yaşlı şəhərin tarixi-mədəni tikililərinin bir qismi haqqında söz açacağıq.

### Hacıquluların malikanəsi

Şuşanın Çuxur məhəlləsində yerləşən Hacıquluların malikanəsi ikinci gildiya taciri Qulu Məhəmmədəli oğlu tərəfindən 1849-cu ildə inşa etdirilib. Bir zamanlar Cəfərqulu xan Məhəmmədhəsən ağa oğlu Sarıcalı-Cavanşirə xidmət edən Hacı Qulu daha sonra ticarətlə məşğul olur. Zamanla Şuşanın varlı tacirlərindən birinə çevrilir.



Hacı Qulu sarayı kimi tanınan tikili öz memarlıq üslubu və milli koloriti ilə Şuşada hər kəsi heyran qoyurmuş. Sarayın 46 otağı və iki böyük qonaq zalı var idi. 1865-ci ildə Şuşada olmuş rus rəssamı Vasili Vereşşaginin (1842-1904) əsərində bu zallardan biri təsvir olunub.

1992-ci ildə Şuşa şəhərinin ermənilər tərəfindən işğalı zamanı Hacı Quluların mülkü top atəşinə tutularaq divarları dağıdılıb. Yalnız mülkün tağvarı girişi olan əsas divarı və yuxarı mərtəbələrə qalxan pilləri qalıb.

davamı səh. 4-də

“İncəsənət ruhu oyadır” mövzusunda seminar




səh. 3

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin yeni rəisi kollektivə təqdim olunub

səh. 3




Xalq artistinin Füzuli teatrında ustad dərsləri

səh. 4

№29 (1902)
15 aprel 2022
www.medeniyyet.az

# “Digər azad edilmiş torpaqlarla yanaşı Şuşanın bərpası prioritet olmalıdır”

## “Azərbaycan xalqı da bu yanaşmanı təqdir edir”



*əvvəli səh. 1-də*

Prezident vurğulayıb ki, biz öz gücümüzlə yeni reallıq yaratmışıq və yaradırıq: “Ona görə bir daha demək istəyirəm ki, mən hələ də ümid edirəm, beynəlxalq təşkilatlar, böyük fondlar, xeyriyyəçiliklə məşğul olan beynəlxalq qeyri-hökumət təşkilatları bir nəzər yetirəcəklər. Ağdam Qafqazın Xirosimasıdır. Bunu mən yox, beynəlxalq mütəxəssislər deyir. Ağdam kimi bütün şəhərlər ermənilər tərəfindən yerlə yeksan edilib. Biz heç kimdən bir manat almamışıq. Ancaq bu ədalətsizliklə barışmaq da olmaz. Mən hesab edirəm ki, bizim qurumlarımız, hökumət, Prezident Administrasiyası, nazirliklər, hərə öz xətti ilə bu məsələ ilə bağlı gərək ciddi fəaliyyət göstərsin. Yardım göstərmək istəmirlərsə, desinlər ki, biz sizə yardım etməyəcəyik. Biz də işimizi bilək. Yəni, müharibədən təxminən bir il yarım keçibdir. Bir fond belə bizə heç bir yardım göstərməyib. Minaların təmizlənməsi ilə bağlı – müharibədən sonra 200-dən çox insan ya həlak olub, ya da ki, ağır yaralanıb. Dünyada bu məsələ ilə məşğul olan o qədər fondlar var, QHT-lər var. Nə ilə məşğuldurlar? Gəlsinlər, kömək göstərsinlər. Bizim fiziki cəhətdən gücümüz çatmır. Biz nə lazımdırsa, almışıq. Maşın, mexanizm almışıq, texnika almışıq, hətta dronlar almışıq ki, o minalarla çirklənmiş yerləri təsbit edir. Ancaq bizdə mütəxəssis çatışmır, bizdə işçi qüvvə çatışmır. Ona görə, heç olmasa, bu sahədə bizə kömək göstərsinlər. Yenə də deyirəm, biz onsuz da öz gücümüzlə hər şeyi bərpa edəcəyik. Mən demişəm, Qarabağı da, Zəngəzuru da nümunəvi bir bölgə kimi quracağıq. Azərbaycan vətəndaşları orada rahat, firavan yaşayacaqlar. Dünya üçün də bir nümunə olacaq. Ancaq mənim sözüm beynəlxalq təşkilatlaradır. İnsan hüquqları ilə məşğul olanlar, ədalət prinsiplərini rəhbər tutanlar heç olmasa, Azərbaycana da diqqət yetirsinlər və ikili standartlardan kənar olsunlar...”.

Prezident qeyd edib ki, 2022-ci ilin üç ayında əldə edilmiş iqtisadi nailiyyətlər qarşıya qoyulan vəzifələrin həlli üçün mühüm zəmin yaradır.

Müşavirədə Baş nazir Əli Əsədov, maliyyə naziri Samir Şərifov, iqtisadiyyat naziri Mikayıl Cabbarov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev görülən işlər, maliyyə vəziyyəti, sosial-iqtisadi sahədə nəticələr barədə məlumat veriblər.

Müşavirəyə yekun vuran dövlət başçısı əsas diqqəti işğaldan azad edilmiş ərazilərdə – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında görüləcək işlərə və planlara ayırıb: “Birincisi, şəhərlərin Baş planları ilə bağlıdır. Bizim hazırda Ağdam və Füzuli şəhərlərinin Baş planları təsdiqlənib və Baş planlar əsasında işlərə start verilib. Artıq mən işlərin gedişatı ilə tanış olmuşam. Digər şəhərlərin Baş planlarının təsdiqlənməsi bu yaxınlarda öz həllini tapmalıdır. Şuşa, Cəbrayıl, Kəlbəcər, Zəngilan, Qubadlı şəhərlərinin, Hadrut və Suqovuşan qəsəbələrinin Baş planları hazırlanmalıdır, bu il təsdiq edilməlidir və ondan sonra bizim Qarabağ və Şərqi Zəngəzura aid olan investisiya proqramında əlavələr edilməlidir. Çünki burada da qeyd olundu, 2,2 milyard manat vəsait nəzərdə tutulur. Amma birinci rübdə cəmi 300 milyon manatdan bir qədər çox vəsait istifadə olundu. Əlbəttə ki, Baş planlar təsdiq olunandan sonra biz ancaq praktiki işlərlə məşğul olacağıq. Mən, ilk növbədə, yaşayış binalarının inşasını nəzərdə tuturam. Çünki digər infrastrukturla bağlı layihələr icra edilir. Minalardan təmizlənmə prosesini sürətləndirmək üçün bu il dövlət büdcəsində 100 milyon manata yaxın vəsait nəzərdə tutulub və bu, bizim üçün prioritet məsələdir. Çünki bu məsələ həll olunmadan biz vətəndaşları o bölgələrə yerləşdirə bilmərik. Ancaq tam əmin olandan sonra ki, o ərazilər minalardan təmizlənib, biz vətəndaşları o ərazilərə yerləşdirə bilərik”.

Prezident diqqətə çatdırıb ki, minatəmizləmə ilə bağlı yeni texnikanın alınması təmin edilir. Burada beynəlxalq mütəxəssislərin dəstəyinə böyük ehtiyac var. Hazırda üç qurum – ANAMA, Müdafiə Nazirliyinin bölmələri və Fövqəladə Hallar Nazirliyi minatəmizləmə işləri ilə məşğuldur. “Bir müddət bundan əvvəl yerli şirkətlərin buraya cəlb olunması məsələsi müzakirə edilmişdir və bildiyimə görə, yerli şirkətlər də bu işlərə qoşulur. Çünki bu təşəbbüs həm sahibkarlığın inkişafına təkan verəcək, – əfsuslar olsun ki, ölkəmizdə minatəmizləmə prosesi uzunmüddətli olacaq, – eyni zamanda, yerli şirkətlər burada təcrübə toplayıb öz xidmətlərini təqdim edə bilərlər. Xarici şirkətlərə gəldikdə, onların təklifi, əlbəttə ki, bu günə qədər qiymət baxımından bizim üçün o qədər də məqbul olmayıb. Çünki yerli şirkətlərin verdikləri qiymətlə xarici şirkətlərin verdikləri qiymətlər arasında dəfələrlə fərq var. Ona görə mən hesab edirəm ki, üç dövlət qurumu ilə bərabər, yerli şirkətlər nə qədər çox yaransa, o qədər yaxşıdır. Bir də ki, dövlət xətti ilə ən müasir maşın və mexanizmlərin alınması da təmin edilməlidir”, – deyə İlham Əliyev bildirib.

Prezident azad edilmiş ərazilərdə infrastruktur layihələri – elektrik təchizatı, dəmiryolu və avtomobil yolu xətlərinin çəkilməsi, hava limanlarının inşası ilə bağlı görülən və nəzərdə tutulan işlərdən də bəhs edib. Bildirib ki, artıq bütün bölgələri birləşdirən elektrik xətləri var. 100 kilometr uzunluğu olan Horadiz-Ağbənd dəmiryolunun 60 kilometri artıq hazırdır. Dörd və altızolaqlı avtomobil yolu da çəkilir. Keçən il Azərbaycan-Ermənistan sərhədinə qədər yerlər də əhatə olunmaqla ümumilikdə 700 kilometrə yaxın yollar çəkilib. Bərdə-Ağdam dəmiryolunun inşası davam edir və gələn il istifadəyə veriləcək. Zəngilan Beynəlxalq Hava Limanının istifadəyə verilməsi də bu ilə nəzərdə tutulur. Bu, Füzuli aeroportundan sonra azad edilmiş ərazilərdə ikinci beynəlxalq hava limanı olacaq. Azad edilmiş ərazilərdə suvarma ilə bağlı layihələrin icrası bu il nəzərdə tutulur.

Prezident azad edilmiş ərazilərdə tarixi-mədəni irsin bərpası məsələsi üzərində də xüsusi dayanıb. Bildirib ki, bu istiqamətdə Şuşada həyata keçirilən işlər xüsusi əhəmiyyət kəsb edir: “Şuşanın bərpası bütün digər azad edilmiş torpaqlarla yanaşı, əlbəttə ki, çox önəmlidir və hesab edirəm ki, prioritet olmalıdır. Azərbaycan xalqı da bu yanaşmanı təqdir edir. İndi Şuşada artıq bərpa işləri gedir, bəzi tarixi abidələr bərpa edilib və bu il görüləcək işlərlə bağlı tapşırıqlar vermək istəyirəm. Tarixi abidələr bərpa edilir, Heydər Əliyev Fondu 3 məscidi əsaslı şəkildə bərpa edir, eyni zamanda, yeni məscidin inşası yaxın aylarda başlanacaq. Artıq yer müəyyən olundu, biz onun təməlini qoyduq.

İndi digər tarixi abidələrin bərpası gedir. Bəzi təkliflər, eskizlər var və əlbəttə ki, biz Şuşanın tarixi simasını bərpa etməliyik. Hər hansı bir tarixi memarlıq ansamblına xələl gətirə biləcək başqa layihə orada icra edilməməlidir. Şuşada yeni teleqüllənin təməli qoyuldu və yəqin ki, yaxın gələcəkdə layihə təqdim ediləcək. Təqdim edilən kimi mütləq vəsait ayrılmalıdır. 960 şagirdlik məktəb, 90 çarpayılıq xəstəxana inşa edilir. Bu layihələrin təməli qoyuldu. Keçmiş poçt binasında “ASAN Xidmət”, DOST mərkəzi və əhaliyə xidmət göstərən digər qurumlar yerləşəcək. Poçt binası memarlığı saxlanılmaq şərti ilə əsaslı şəkildə təmir olunacaq.

Onu da bildirməliyəm ki, Şuşada yaşayış məhəlləsinin təməli qoyuldu, evlərin inşasına start verildi. Yeni beşulduzlu hotelin inşası üçün yer seçildi. O, həmin yerdir ki, o vaxt qondarma qurum orada dırnaqarası parlament inşa etmək istəyirdi və digər şeytan yuvası orada yerləşmişdi. Müharibə zamanı o da yox oldu. İndi orada beşulduzlu hotelin layihəsi mənə təqdim edildi. Şuşanın memarlığına uyğun gözəl bir bina olacaq. Şəhər meriyası binası əsaslı şəkildə təmir edilir və onun yanında yeni konfrans zalı inşa olunur. Çünki indi Şuşada böyük tədbir keçirmək üçün yer yoxdur. Ona görə konfrans zalı meriya binasına bitişik olacaq və orada yaxın gələcəkdə ən mötəbər tədbirlər keçiriləcək”.

May ayında Şuşada növbəti “Xarıbülbül” festivalının keçiriləcəyini deyən İlham Əliyev bildirib ki, budəfəki festivala dünyanın müxtəlif ölkələrindən folklor kollektivləri dəvət edilib: “Vaxtından qabaq anons vermək istəmirəm, amma hesab edirəm ki, çox maraqlı festival olacaqdır...”.

Azad edilmiş ərazilərə sakinlərin köçürülməsinə gəlincə, dövlət başçısı qeyd edib ki, Zəngilan rayonunun Ağalı kəndinin sakinləri artıq bu il yerləşəcəklər. Bu, birinci pilot layihədir. Füzulinin Dövlətyarlı kəndinin yaradılmasına bu il başlanacaq. Bu, bir neçə kəndi birləşdirən layihədir. Azad edilmiş digər rayonlarda kəndlərin yenidən qurulması layihələri hazırlanır və şəhərlərlə paralel olaraq biz kəndləri də bərpa edəcəyik. Bu il üç məktəbin inşası (Ağdamda, Cəbrayıl şəhərində və Şuşada) başa çatmalıdır. Hər üç məktəb 960 yerlikdir. Şuşa şəhərində xəstəxana bu il istismara veriləcək, Ağdamda 210, Füzulidə 180 çarpayılıq xəstəxanaların inşasına start verilib. Cəbrayılda isə yaxın gələcəkdə xəstəxananın təməli qoyulacaq.

“Beləliklə, keçmiş məcburi köçkünləri qaytarmaq üçün kompleks tədbirlər görürük. Yaşayış binaları, infrastruktur, iş yerləri, kənd təsərrüfatı ilə məşğul olmaq imkanları, sənaye parkları – biz planlı şəkildə bu işləri görəcəyik. Əminəm ki, bütün planlar həyatda öz əksini tapacaq. Biz istədiyimizə nail olacağıq”, – deyə İlham Əliyev vurğulayıb.

# Gürcüstan nümayəndə heyəti işğaldan azad olunmuş ərazilərə gedəcək

*əvvəli səh. 1-də*



F.Bədəlbəyli bu il görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirovun 100 illik yubileyinin qeyd edildiyini diqqətə çatdırdı. Xalq artisti, pianoçu Murad Adıgözəlzadə Fikrət Əmirovun miniatürlərini ifa etdi.

Tədbirdə həmçinin F.Bədəlbəyli qonaqların xahişi ilə özünün məşhur “Dəniz” əsərini səsləndirdi. Qonaqların ən kiçiyi 5 yaşlı uşaq bu isti və səmimi sənət mübadiləsini görüb Azərbaycan dilində “Cücələrim” mahnısını ifa etməyə başladı.

Görüş İamze Cakelinin ifasında sözləri Aslan Abdullayevə, musiqisi Elza İbrahimovaya məxsus “Ey Vətən” mahnısı ilə yekunlaşdı.

Qonaqlara F.Bədəlbəyli və M.Adıgözəlzadənin duet şəklində yazdırdığı Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət CD albom hədiyyə edildi.

Sonda nümayəndə heyətinin rəhbəri, prodüser Nino Lortkipanidze səmimi qəbula görə təşəkkürünü bildirdi. Onu Azərbaycanla bağlayan tellərin olduğunu, babasının vaxtilə neftçi olaraq Bakıda çalışdığını və burada dəfn edildiyini bildirdi. Diqqətə çatdırdı ki, hazırda Azərbaycan və Gürcüstan sənət xadimləri ilə birgə mədəni layihə üzərində çalışır. O, xalqlarımız arasında bu dostluğu daha da möhkəmləndirmək üçün hər zaman dəstəyə hazır olduqlarını vurğuladı.

Qeyd edək ki, nümayəndə heyətinin 15-17 aprel tarixində Gəncə, Füzuli, Cəbrayıl, Şuşa və Ağdam şəhərlərinə səfəri təşkil olunacaq.

**Lalə Azəri**

# Dünya İncəsənət Günü münasibətilə

15 aprel Dünya İncəsənət Günüdür. Əlamətdar gün 2019-cu ildə UNESCO Baş Konfransının Parisdə keçirilən 40-cı sessiyasında təsis olunub.



Aprelin 13-də F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Dünya İncəsənət Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin, “Kaspi” liseyinin şagirdləri, kitabxana əməkdaşları, oxucular və valideynlər iştirak ediblər.

Musiqi məktəbi şagirdlərinin ifasında konsert proqramı təqdim edilib. Uşaqların tar və fortepianonun müşayiətində ifa etdikləri Həsən Rzayevin “Çahargah” rapsodiyası, Tofiq Quliyevin “Kəndimiz”, Sergey Prokofiyevin “Marş” və s. musiqi nömrələri maraqla qarşılanıb.

Tədbirdə iştirak edən uşaqlara kitabxananın təsis etdiyi “Göyqurşağı” jurnalı hədiyyə edilib.

# Yerlərdə mədəni fəaliyyət günün tələblərinə cavab verməlidir

## Mədəniyyət naziri Quba rayonunda müəssisələrin işi ilə tanış olub

*əvvəli səh. 1-də*

Qonaqlar Mədəniyyət Mərkəzinin foyesində “Bacarıqlı əllər” dərnəyi üzvlərinin əl işlərindən ibarət sərgi ilə də tanış olub, “Gözəl Quba” ansamblının ifasında “Şuşanın dağları” mahnısının məşqini izləyiblər. “Art” yaradıcılıq studiyasının “Nizami Gəncəvi İli” münasibətilə dahi şairin “Sirlər xəzinəsi” poemasından “Kərpickəsən kişinin dastanı” hekayəti əsasında hazırladığı qısametrajlı film nümayiş etdirilib.





Mədəniyyət naziri və icra başçısı daha sonra Quba rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanasına baş çəkiblər. Məlumat verilib ki, 1932-ci ildə yaradılan kitabxana bu il 90 illiyini qeyd edir.

Nazir Quba şəhər uşaq musiqi və incəsənət məktəblərinə baxış keçirərkən tədris ocaqlarının fəaliyyəti barədə ətraflı məlumat alıb, təhsilin keyfiyyətinin yüksəldilməsi, istedadlı uşaq və gənclərin dəstəklənməsinin əhəmiyyətini və vacibliyini diqqətə çatdırıb, bununla əlaqədar müvafiq göstərişlər verib.

Mədəniyyət naziri Qubada XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidələri olan Ərdəbil məscidi və Cümə məscidini də ziyarət edib. Nazirə məlumat verilib ki, Ərdəbil məscidi Cənubi Azərbaycanın Ərdəbil bölgəsindən buraya köçürülən ailələr tərəfindən XIX əsrdə tikilib. Quba Cümə məscidi zəngin memarlıq üslubu ilə seçilir. Məscidin daxildən hündürlüyü 18 m, ümumi sahəsi isə 360 kvadratmetrdir. Tikintisində istifadə olunan çiy kərpiclər rayonun İqriq kəndində hazırlanıb. Məscidin mehrab hissəsi Mədinə şəhərindəki məsciddə olduğu kimi işlənib. Tikilinin orta hissələrində sütunun olmaması memarın yüksək peşəkarlığından xəbər verir.

Anar Kərimov səfər çərçivəsində Quba Tarix-Diyarşünaslıq Muzeyinə baş çəkib. Nazirə məlumat verilib ki, 1924-cü ildə yaradılan muzeydə hazırda 11 minə yaxın eksponat qorunub saxlanılır. Muzey 2015-ci ildə ümumi sahəsi 1620 kvadratmetr olan, müasir standartlara uyğun 3 mərtəbədən ibarət yeni binaya köçürülüb. Qeyd edilib ki, ekspozisiyada Quba xalçaları, XVIII-XIX əsrlərə aid milli geyim nümunələri, xalqımızın tarixi, mədəniyyəti, tətbiqi sənəti və məişətini əks etdirən eksponatlar nümayiş olunur.







Quba Soyqırımı Memorial Kompleksinə gələn Anar Kərimova məlumat verilib ki, Quba şəhərində soyqırımı məzarlığı 2007-ci ilin aprelində ərazidə torpaq işləri görülərkən aşkarlanıb. Tədqiqatlar nəticəsində toplu məzarlığın 1918-ci ildə erməni silahlı dəstələrinin yerli əhaliyə qarşı törətdiyi soyqırımı ilə bağlı olduğu müəyyən edilib. Erməni millətçilərinin cinayətkar əməllərinin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Prezident İlham Əliyevin 2009-cu il oktyabrın 30-da imzaladığı sərəncama əsasən, Heydər Əliyev Fondunun dəstəyi ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi inşa edilib. 2013-cü il sentyabrın 18-də kompleksin açılışı keçirilib.

Mədəniyyət naziri Qubada XIX əsrə aid yerli əhəmiyyətli memarlıq abidəsi olan Hündür günbəzli hamam və ölkə əhəmiyyətli memarlıq abidəsi Səkinə xanım məscidini də ziyarət edib. Quba şəhərində Musabəyov və Ərdəbil küçələrinin kəsişməsində yerləşən Hündür günbəzli hamama baxış keçirilərkən bildirilib ki, el arasında bəzən “Çuxur hamam”, “Bəkir hamamı” və “Məşədi Əlimərdan hamamı” da adlandırılan abidədə 2018-ci ildə təmir-bərpa işləri həyata keçirilib. İki günbəz və 9 hücrədən ibarət olan qədim tikilinin fasadı tamamilə yenilənib, damörtüyü dəyişdirilib.

Quba rayonunun memarlıq abidələri arasında özünəməxsus yer tutan Səkinə xanım məscidi ilə tanışlıq zamanı nazirə məlumat verilib ki, məscid görkəmli Azərbaycan şairi, tarixçi, maarifçi Abbasqulu ağa Bakıxanovun həyat yoldaşı Səkinə xanımın vəsaiti ilə 1854-cü ildə tikilib.

Qubada mədəniyyət müəssisələri və tarixi-mədəni abidələrlə tanışlıqdan sonra nazir Anar Kərimov rayon Mədəniyyət Mərkəzində “Şuşa İli” münasibətilə təşkil olunan konsert proqramını izləyib.

Konsertdə Quba rayon Uşaq musiqi məktəbi kollektivinin ifasında ilk olaraq Ü.Hacıbəylinin “Koroğlu” operasından “Uvertüra” səslənib.

Sonra Quba rayon Uşaq musiqi məktəbi və rayon Uşaq incəsənət məktəbi şagirdlərinin, eləcə də Mədəniyyət Mərkəzi solistlərinin ifasında müxtəlif musiqi nömrələri təqdim olunub. “Quba könüllülər teatrı” “Nizami inciləri” teatrlaşdırılmış kompozisiyasını nümayiş etdirib. Tat folklor qrupunun ifasında “Şuşam”, dağ yəhudisi ifaçının oxuduğu “Şuşa”, Mədəniyyət Mərkəzinin “Gözəl Quba” ansamblı və solistin ifasında “Şuşanın dağları” mahnıları alqışlarla qarşılanıb. Proqram bütün ifaçıların iştirakı ilə səslənən “Yaşa, mənim xalqım” mahnısı ilə başa çatıb.

# Avropa İttifaqı Azərbaycanla mədəniyyət sahəsində layihələrə böyük önəm verir

Avropa İttifaqı ilə Azərbaycan arasında bir çox sahələrdə, o cümlədən humanitar və mədəniyyət sahələrində əməkdaşlıq inkişaf edir.

Bu fikir aprelin 12-də mədəniyyət naziri Anar Kərimovun Avropa İttifaqının (Aİ) Azərbaycandakı Nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko ilə görüşündə vurğulanıb.

Görüş zamanı Mədəniyyət Nazirliyi və Avropa İttifaqı arasında mədəniyyət sahəsində əməkdaşlıq, bu əlaqələrin perspektivi, həyata keçirilən beynəlxalq layihələr və Azərbaycanın işğal altında olmuş ərazilərinin azad olunmasından sonra yaranmış vəziyyət barədə söhbət aparılıb.

İşğaldan azad edilmiş ərazilərimizin minalardan təmizlənməsində Avropa İttifaqının dəstəyindən söz açan nazir bu sahədə aparılan işlərə görə qarşı tərəfə minnətdarlığını ifadə edib.



Anar Kərimov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Bakı Prosesi" təşəbbüsü, bu təşəbbüs çərçivəsində Azərbaycanın beynəlxalq mədəniyyətlər və dinlərarası dialoqa töhfələri ilə bağlı fikirlərini bölüşüb.

Nazir ölkəmiz tərəfindən irəli sürülən "Mədəniyyət naminə sülh" ("Peace for Culture") qlobal çağırışı haqqında da məlumat verib. Qeyd edib ki, Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansı və İCESCO tərəfindən dəstəklənən bu layihənin əsas məqsədi mədəniyyətin qorunması üçün regionda sülhün bərqərar olmasıdır. Bu məqsədlə Azərbaycan "Mədəniyyət naminə sülh" kampaniyası ilə dünyaya çağırış edir. Anar Kərimov Avropa İttifaqını nazirliyin irəli sürdüyü bu kimi bir sıra beynəlxalq təşəbbüslərdə iştiraka dəvət edib.

Səfir Peter Mixalko qəbula görə təşəkkürünü bildirərək Avropa İttifaqı tərəfindən Azərbaycanla mədəniyyət sahəsində həyata keçirilən layihələrə böyük önəm verildiyini və bu münasibətlərin müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb.

Görüş tərəfləri maraqlandıran digər məsələlərin müzakirəsi ilə davam edib.

# "İncəsənət ruhu oyadır"

## "Autizm aylığı" çərçivəsində elmi-praktik seminar

Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (MEMİM) tərəfindən aprelin 12-də Yasamal rayon Heydər Əliyev Mərkəzində "İncəsənət ruhu oyadır" adlı elmi-praktik seminar təşkil olunub. Seminarın məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqların mədəniyyət və incəsənət vasitəsilə cəmiyyətə adaptasiya edilmələri üçün geniş şərait yaratmaqdır.

Tədbirin əvvəlində Yasamal rayon Heydər Əliyev Mərkəzinin direktoru Naminə Ömərova və Mədəniyyət Nazirliyi Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin direktoru Səadət Xələfbəyli çıxış ediblər. S.Xələfbəyli qeyd edib ki, autizm spektr pozuntusu olan uşaqların cəmiyyətə inteqrasiya olunması prosesində, habelə sözügedən uşaqlarda müxtəlif bacarıqların inkişaf etdirilməsində bir sıra qurum və mütəxəssislərin müştərək fəaliyyət göstərməsi çox önəmlidir.

Seminara hökumət və qeyri-hökumət təşkilatlarının, müxtəlif qurumların nümayəndələri qatılıblar. Ombudsman Aparatı Uşaq hüquqlarının müdafiəsi sektorunun müdiri Nigar Ağayeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Uşaq problemləri şöbəsinin məsləhətçisi Şəbnəm Cəfərova, Sosial Xidmətlər Agentliyi Sosial müəssisələrlə iş departamentinin müdir müavini Sara Ağayeva, Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin şöbə müdiri Səbinə Babazadə çıxış ediblər.



Təhsil İnstitutunun Elmi katibliyin xüsusi və inklüziv təhsil üzrə mütəxəssisi, pedaqogika üzrə fəlsəfə doktoru Lalə İmanova, Azərbaycan Tibb Universitetinin Nevrologiya kafedrasının assistenti, tibb üzrə fəlsəfə doktoru Kamran Salayev, "Birgə və Sağlam" İctimai Birliyinin sədri Aytən Eynalova, Azərbaycan Tibb Universiteti Psixiatriya kafedrasının əməkdaşı, "Nəfəs" psixonevroloji sağlamlıq akademiyasının təsisçisi İkram Rüstəmov və Psixologiya Elmi Tədqiqat İnstitutunun sədri Elnur Rüstəmovun çıxışları da dinlənilib.

Mütəxəssislər qeyd ediblər ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların digər insanlardan fərqləndirilməməsi, onların cəmiyyətin bərabərhüquqlu fərdləri kimi yaşaması, cəmiyyətə inteqrasiya olunması, komplekslərdən qurtulması üçün əlimizdən gələni əsirgəməməliyik. Bunun üçün mütəmadi olaraq onlarla ünsiyyətdə olmaq, ehtiyaclarını öyrənmək, mənəvi cəhətdən yardım göstərmək, onları dinləməyə və anlamağa çalışmaq lazımdır.

Ekspertlər onu da bildiriblər ki, autizm spektr pozuntusu olan insanların, xüsusilə uşaqların cəmiyyətə tam və bərabərhüquqlu inteqrasiyası üçün geniş ictimaiyyət arasında müəyyən təbliğat xarakterli işlərin aparılması çox vacib məsələdir.

Tədbirdə Mədəniyyət Nazirliyinin autizm spektr pozuntusu diaqnozu müəyyən edilmiş insanların cəmiyyətə inteqrasiya olunması prosesinə göstərdiyi diqqət və marağın son dərəcə önəmli olduğu qonaqlar tərəfindən xüsusilə vurğulanıb.

Seminarın bədii hissəsində Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbəsi Əlisahib Bayramovun, "Mavi ürəklər" xor qrupunun (fortepianoda müşayiət: Arzu Səmədqızı) ifaları dinlənilib. Tədbir iştirakçıları Heydər Əliyev Mərkəzinin ekspozisiyasına, tematik videoçarxına və autizm spektr pozuntusu olan uşaqların əl işlərindən ibarət sərgiyə baxıblar. Sonda qonaqlar "Birgə və Sağlam" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən reabilitasiya mərkəzinin dəstəyi ilə autizm spektr pozuntusu olan uşaqlar tərəfindən hazırlanan müxtəlif təamları dadıblar.

# Xalq artisti Məbud Məhərrəmovun 65 illiyi qeyd edilib

Aprelin 13-də Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyində tanınmış teatr və kino aktyoru, Xalq artisti Məbud Məhərrəmovun 65 illiyinə həsr olunmuş tədbir keçirilib.

Tədbiri muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Sevinc Mikayılova açaraq yubilyara təbriklərini çatdırıb, onun yaradıcılıq yolu haqqında məlumat verib.

Muzeyin əməkdaşı Suğra Niftullayeva aktyorun sənət fəaliyyətindən ətraflı danışıb.

Tədbirdə iştirak edən qonaqlardan Xalq artistləri Ramiz Həsənoğlu, Hacı İsmayılov, Xalq rəssamı Arif Hüseynov, rejissor Oleq Səfərəliyev, Əməkdar artist Həcər Ağayeva və başqaları yubilyarı ad günü münasibətilə təbrik edib, öz ürək sözlərini bölüşüblər. Təbriklərə aktyorun ailə üzvləri və dostları da qoşulub.



Tədbir çərçivəsində muzey əməkdaşlarının Məbud Məhərrəmovun həyat və yaradıcılığı ilə bağlı hazırladıqları videoçarx nümayiş olunub. Aktyorun oynadığı tamaşalardan və çəkildiyi filmlərdən fraqmentlər izlənilib.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistləri – Xalq artisti Gülyaz Məmmədova "Nə gözəldir", "Dilkəş" təsnifi, Fatimə Cəfərzadə və Prezident təqaüdçüsü Ataş Qarayev "Arşın mal alan" operettasından ariyaları ifa ediblər.

Bunlardan əlavə, tədbir yubilyar üçün xoş sürprizlə yadda qalıb. Məbud Məhərrəmovun V.Şekspirin "Kral Lir" tamaşasında yaratdığı Təlxək obrazında Xalq rəssamı Arif Hüseynov tərəfindən çəkilmiş portretinin təqdimatı olub. Əsər Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin kolleksiyasına daxil edilib.

# YARAT-da "Mədəni yenilənmə" layihəsinin növbəti tədbiri

Mədəniyyət Nazirliyinin YARAT Müasir İncəsənət Mərkəzi ilə birgə həyata keçirdiyi "Mədəni yenilənmə" layihəsinin budəfəki qonağı Rusiya Kino və Televiziya Rəssamları Gildiyasının vitse-prezidenti, Moskva Kino Məktəbinin "Bədii quruluş" proqramının kuratoru, tanınmış kino rəssamı Əddis Hacıyevdir.

Aprelin 26-da YARAT Müasir İncəsənət Mərkəzində reallaşacaq tədbir zamanı Moskva Kino Məktəbi tələbələrinin ərsəyə gətirdikləri işlər təqdim olunacaq. Tədbir çərçivəsində Əddis Hacıyevin "İdrak" adlı qısametrajlı filmi nümayiş ediləcək. Film 2021-ci ildə Türkiyənin Aydın şəhərində keçirilən "Efeler Uluslararası Çevre Film Günleri" festivalında mükafat qazanıb.




Nümayişdən sonra həmçinin Avropa, Rusiya və Azərbaycanda kino istehsalının xüsusiyyətlərinə dair müzakirələr aparılacaq. Eyni zamanda layihə çərçivəsində təhsil sahəsi üzrə ekspert Yekaterina Çərkəzzadə ilə kreativ sənayelərin inkişafına dair panel müzakirə keçiriləcək.

# Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin yeni rəisi kollektivə təqdim olunub

Mədəniyyət naziri Anar Kərimovun əmri ilə İbrahim Müseyib oğlu Əliyev Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi təyin olunub.

Aprelin 13-də Mədəniyyət Nazirliyinin Strateji inkişaf və layihələrin idarə edilməsi şöbəsinin müdiri – Aparatın rəhbəri vəzifəsini icra edən Vüqar Məmmədov İbrahim Əliyevi kollektivə təqdim edib.



Baş idarənin Mədəniyyət Nazirliyinin aparıcı qurumlarından biri olduğunu vurğulayan Vüqar Məmmədov "Şuşa İli" çərçivəsində keçiriləcək tədbirlərdə, eləcə də təcrübə mübadiləsi zamanı idarədə çalışan mütəxəssislərin yaxından iştirak etməsinin, bölgələrlə paytaxt müəssisələri arasında birgə layihələrin həyata keçirilməsinin zəruriliyini qeyd edib.

İbrahim Əliyev çıxışında göstərilən etimada görə mədəniyyət naziri Anar Kərimova təşəkkürünü bildirib və Azərbaycan Respublikası Prezidentinin mədəniyyət sahəsində qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi üçün çalışacağını söyləyib.

Sonra Vüqar Məmmədov idarə qarşısında duran əsas vəzifələrdən söhbət açıb və strateji qiymətləndirmələrin aparılması, həssas təbəqələrlə, xüsusilə şəhid ailələri və qazilərlə işin müntəzəm təşkili, mətbuatla iş və ictimaiyyətlə əlaqələrin genişləndirilməsini vurğulayıb. O, qeyd olunan sahələr üzrə tövsiyələr verərək kollektivə uğurlar arzulayıb.

İbrahim Müseyib oğlu Əliyev 1976-cı ildə anadan olub. Azərbaycan Dövlət Neft Akademiyasında bakalavr və magistr pillələri üzrə təhsil alıb. Kənd Təsərrüfatı, İqtisadi İnkişaf, Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliklərində müxtəlif vəzifələrdə işləyib.

# Dini icmaların nümayəndələri Xocavənddə məbədlərə baş çəkiblər

Azərbaycanda fəaliyyət göstərən xristian icmalarının nümayəndələri Xocavənd rayonun işğaldan azad olunmuş ərazilərinə səfər ediblər. Səfər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təşkilatçılığı, qurumun tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun dəstəyi ilə reallaşıb.

"Həyat Sözü", "Azərbaycan Bibliya Cəmiyyəti", "Alov", "Vineyard", "Həyatverici lütf", "Şərqdə Ulduz", "Yeni Həyat", Alban-udi xristian, Xilaskar Yevangelik-Lüteranların Bakı dini icması, Bakı şəhəri "Yeddinci Günün Adventistləri", "Yevangelist Xristian Baptistlərin kilsəsi", Yevangelist Məsihi Baptistlərinin "Aqape" dini icmaları, eyni zamanda "Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası", Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının, eləcə də müsəlman icmalarının üzvləri Xocavənd rayonunda bir sıra dini məbədləri ziyarət edib, şəhidlərin ruhuna dualar oxuyub, dini ayinlər icra ediblər.

# Muzey əşyalarının mühafizəsi ilə bağlı müzakirə aparılıb

Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzi aprelin 12-də "Yeni tikilən və ya yenidən qurulan muzey binalarının ekspozisiya və fondlarında muzey əşyalarının mühafizə problemləri" mövzusunda onlayn sərgi-seminar keçirib.

"Zoom" platforması üzərindən təşkil edilən seminarda Şəmkir, Saatlı, Masallı, Beyləqan tarix-diyarşünaslıq muzeylərinin, Elmi Bərpa Mərkəzinin əməkdaşları ilə yanaşı, bu istiqamətin gələcək mütəxəssisləri kimi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Muzeyşünaslıq fakültəsinin IV kurs tələbələri iştirak ediblər.



Mərkəzin baş mühafizi İranə İbrahimova mövzu ilə bağlı çıxış edərək yeni tikilən və ya yenidən qurulan muzeylərə muzey əşyalarının təxliyəsi, yerləşdirilmə, mühafizə və nümayiş şərtləri, habelə bu zaman qarşıya çıxan problemlər haqqında məlumat verib, mümkün həll yolları ilə bağlı tövsiyələrini bildirib.

Tarix-diyarşünaslıq muzeylərinin rəhbərləri yenidən qurulan və ya yeni tikilən binalarında eksponatların mühafizə qaydalarından, bu yolda qarşılaşdıqları problemlərdən və onların həllindən bəhs ediblər. Muzey rəhbərləri Elmi Bərpa Mərkəzinin fəaliyyətindən də bəhs edərək eksponatlara ikinci həyat bəxş etdikləri üçün bərpaçılara təşəkkürlərini bildiriblər.

Mərkəzin kimyaçı-mühəndisi Pərvin Sadıqova və bioloq-mühəndisi Arifə Fərhadova iştirakçıları maraqlandıran sualları cavablandıraraq öz tövsiyələrini veriblər.

Mərkəzin əməkdaşı Firuzə Mahmudova müxtəlif muzeylərin fonduna məxsus əşyaların bərpası ilə bağlı təqdimat edib.

Sonda mərkəzdə bərpa edilən eksponatların fotolarından ibarət sərgi nümayiş olunub.

# Pantomima "Yük"ü

Azərbaycan Dövlət Pantomima Teatrında 16-17 aprel tarixlərində "Yük" tamaşasının premyerası olacaq.

Teatrın bədii rəhbəri və baş rejissoru, Xalq artisti Bəxtiyar Xanızadənin hazırladığı tamaşanın məşqləri hələ pandemiyadan öncə başlanmışdı. "Uzaqda bir nəfər var" devizli səhnə işinin plastik həll üzrə rejissoru Sahib Novruzov, quruluşçu rəssamı Xəyyam Səmədov, musiqi tərtibatçısı Bəhruz Əhmədlidir.

Tamaşada Əməkdar artistlər Bəhruz Əhmədli, Elman Rəfiyev, aktyorlar Nurlan Rüstəmov, Solmaz Bədəlova, Nuridə Musabəyli, Elxan Şahəliyev, Elvin Qiyaslı, Elnur Abbasquliyev və başqaları rol alıblar.

# Marionet Teatrında "Biz varıq"

## İnklüziv tamaşa təqdim olunub

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin (DTMQ) dəstəyi ilə Marionet Teatrında "Biz varıq" adlı səhnələşdirilmiş inklüziv tamaşa nümayiş edilib.



Qoruq idarəsinin mətbuat xidmətindən bildirilib ki, "Be Kind" layihəsi çərçivəsində səhnələşdirilən tamaşada sağlamlıq imkanları məhdud olan və olmayan uşaqların iştirakı ilə səhnəciklər və "Dance Ability" komandasının çıxışları izləyicilərə təqdim olunub.

Açılışda "İçərişəhər" DTMQ İdarəsi İdarə Heyətinin sədri Şahin Seyidzadə çıxış edərək inklüziv layihələrin vacibliyini vurğulayıb.

İdarənin nəzdində fəaliyyət göstərən Marionet Teatrının bədii rəhbəri Tərlan Qorçu və "Be Kind"in təsisçisi Şirin Rzayeva tədbirin təşkilində göstərilən dəstəyə görə təşəkkürlərini bildiriblər.

İnklüziya üzrə mütəxəssis Zarina Məmmədova xüsusi təhsilin mahiyyəti və onun əhəmiyyəti haqqında danışıb. Qeyd edilib ki, "Be Kind" xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstək göstərmək və onların cəmiyyətdə inteqrasiyasına imkan yaratmaq üçün hazırlanan bir layihədir.

Tədbirdə qonaq qismində iştirak edən BMT İnkişaf Proqramının Azərbaycandakı məsul əməkdaşı Suxrob Xocimatov bu kimi layihələrə dəstək olduqlarını söyləyib.

Sonra tamaşa təqdim olunub.

"İçərişəhər" DTMQ İdarəsi xüsusi qayğıya ehtiyacı olan uşaqları diqqətdə saxlayır və bu məqsədlə müxtəlif tədbir və layihələr həyata keçirir.

## “Öyrədərək öyrənirəm”

Mədəniyyət Nazirliyinin “Öyrədərək öyrənirəm” layihəsi çərçivəsində Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktyoru, Xalq artisti Pərviz Məmmədrzayev aprelin 14-dən 18-dək Füzuli Dövlət Dram Teatrında ustad dərsləri keçəcək.




Dərslərin ilk günü diqqət və yaddaşa yönəlik duyğu üzvlərinə aid məşqlər keçiləcək. Xalq artisti növbəti günlərdə “Hərəkətin xarakterinin və mənasının zaman və məkan aspektindən açılması”, “Aktyorun tərəf-müqabilinə uyğunlaşması və onunla səhnədə canlı şəkildə işləyə bilməsi”, “Bədənin ifadə vasitələrinin inkişafı”, “Bədən üzvlərinə aid çalışma, etüdlər”, “Hərəkət və sözlə bağlı improvizasiya”, “Mətn üzərində iş formaları”, “M.Çexovun “Ağırlıq mərkəzi” və “Psixoloji jest” anlayışları barədə” təlimlər keçəcək, sənət təcrübəsini teatrın yaradıcı heyəti ilə bölüşəcək.

## Lənkəran teatrında yeni tamaşanın məşqləri

Lənkəran Dövlət Dram Teatrında növbəti səhnə əsərinin məşqləri başlanıb. Sənət ocağı yazıçı-dramaturq İlqar Fəhminin “Şahnamə” pyesinə müraciət edib.



İkihissəli tarixi-psixoloji dram əsasında hazırlanan eyniadlı tamaşanın mövsümün sonunadək təqdim edilməsi nəzərdə tutulub.

Səfəvi hökmdarı Şah Abbasın həyatının müxtəlif məqamlarını əks etdirən tamaşanın quruluşçu rejissoru Tərlan Abdullayev, quruluşçu rəssamı Tərlan Sadıxov, musiqi tərtibatçısı Fərahim Fərəcovdur.

Səhnə əsərində Xalq artisti Qabil Quliyev, Əməkdar artist Süceddin Mirzəyev, artistlərdən Əlibala Əsgərov, Əbülfəz Axundov, Miraslan Ağayev, Allahverən Babayev, Səyad Əliyev, Emil Rzayev və Rauf Zeynalov rol alırlar.

## Köhnə mövzu, yeni yozum

Aprelin 10-da Ağdam Dövlət Dram Teatrında dramaturq Əli Əmirlinin eyniadlı pyesi əsasında hazırlanan “Onun iki qabırğası” komediyasının premyerası olub.



Müasir kişi-qadın münasibətlərinin ön planda olduğu məişət mövzulu səhnə əsərinə teatrın baş rejissoru Kərəm Həsənov quruluş verib.

Tamaşanın quruluşçu rəssamı Qönçə Həzizadə, musiqi tərtibatçısı Elşən Cəfərovdur.

Rolları Kərim Həsənov, Xəyalə Xudadatova, Afəridə Əhmədova, Qalib Abdullazadə, Camal Zamanov, Elmir Hümbətov, Nuranə Əliyeva və Sadiq Bağırov ifa edirlər.

# Mədəniyyət paytaxtımızın bölgələrdə tərənnümü

“Şuşa İli” Azərbaycanın söz-sənət salnaməsində dərin iz qoyan qədim şəhərin mədəni mirasına bir daha nəzər salmaq baxımından böyük əhəmiyyət kəsb edir. Bölgələrdə keçirilən tədbirlərdə də Şuşanın zənginlikləri səhifələnir, mədəniyyət paytaxtımız tərənnüm edilir.



Kürdəmir Regional Mədəniyyət İdarəsi (RMİ) Beyləqan rayon Heydər Əliyev Mərkəzində “Heydər Əliyevin Şuşaya zəngin tarixi abidə kimi qayğısı” mövzusunda elmi-praktik konfrans keçirilib. Çıxışlarda Şuşanın Azərbaycan tarixindəki yerindən, abidələrindən, işğalı və azad olunmasından bəhs edilib.

Biləsuvar RMİ Salyan rayon Heydər Əliyev Mərkəzi və Salyan rayon Uşaq-gənclər şahmat məktəbinin birgə təşkilatçılığı ilə “Şuşa İli”nə həsr olunmuş şahmat turniri keçirilib. Turnirdə qalib gələn iştirakçılar diplomla təltif ediliblər.



Şəmkir RMİ-nin dəstəyi ilə Gədəbəy Aşıq Məktəbində “Şuşa İli” münasibətilə sərgi-konsert təşkil edilib. İdarənin rəisi Azər Rəcəbovun da iştirak etdiyi tədbirdə müxtəlif bölmələrdə 50-dək fotoşəkil və 180-dən çox bilgi lövhəsi nümayiş etdirilib. Konsert hissəsində şagirdlərin ifasında musiqilər səsləndirilib.

Ağdaş RMİ Ağdaş rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Şəmsabad, Qolqəti, Yuxarı Ləki kənd klub müəssisələrində “Qarabağın incisi – Şuşa”, “Şuşaya qayıdış” adlı silsilə tədbirlər keçirilib.



Şəki RMİ-nin tabelıyindəki Zaqatala rayon Heydər Əliyev Mərkəzində “Şuşa İli” ilə bağlı Yuxarı Çardaxlar kənd tam orta məktəbinin şagirdlərinə açıq dərs keçirilib. Balakən rayon Mədəniyyət Mərkəzində isə “Şuşa İli”nə həsr olunmuş hərbi vətənpərvərlik mövzusunda film nümayiş etdirilib. Film Vətən torpağının düşməndən azad edilməsində mühüm rol oynamış Xüsusi Təyinatlı Qüvvələrə həsr olunub.

Xaçmaz RMİ Xaçmaz Rayon Tarix-Diyarşünaslıq Muzeyində “Şuşa İli” münasibətilə keçirilən tədbirdə məktəblilərə Şuşanın abidələri haqqında məlumat verilib. Xaçmaz şəhərindəki ümumtəhsil məktəblərinin 7-8-ci sinif şagirdləri və muzey filiallarının işçilərinin iştirak etdiyi tədbirdə “Şuşa abidələri” adlı videoçarx nümayiş etdirilib.

Ağcabədi RMİ Ağcabədi rayon MKS-nin Qaradolaq kənd kitabxana filialının əməkdaşları kənd ümumi orta məktəbinin 9-cu sinif şagirdləri ilə “Şuşa – 270” başlıqlı tədbir keçiriblər. Şagirdlərə Şuşanın yaranma tarixindən, işğalından və Qələbəmiz haqqında məlumat verilib.

Sabirabad RMİ Sabirabad rayon Heydər Əliyev Mərkəzində S.Vurğun adına 3 saylı şəhər tam orta məktəbinin müəllimləri və IV sinif şagirdlərinin iştirakı ilə keçirilən tədbirdə “Şuşa: işğalı və azad olunması” adlı sənədli film nümayiş olunub.



Şirvan şəhər MKS-nin 4 saylı kitabxana filialının əməkdaşları “Şuşa İli” ilə əlaqədar açıq havada kitab sərgisi təşkil ediblər.

Sumqayıt RMİ-nin əhatə etdiyi Şuşa rayon Mədəniyyət evi, Malıbəyli kənd Mədəniyyət evi və “İstedadları Tanıyaq və Tanıdaq” İctimai Birliyinin təşkilatçılığı ilə “Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı” adlı tədbir keçirilib.

İsmayıllı RMİ İsmayıllı Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində “Qafqazın kiçik Parisi, tarixi Pənahabad – Şuşa qalası” adlı inşa-yazı müsabiqəsi keçirilib. Müsabiqədə İsmayıl-



lı şəhəri və Quşencə, Qalıncaq, Şəbiyan kənd məktəblərinin şagirdləri iştirak ediblər. Qəbələ rayon Heydər Əliyev Mərkəzində isə Şuşa rayon 24 nömrəli tam orta məktəbi və Qəbələ şəhər Uşaq incəsənət məktəbin iştirakı ilə “Mədəniyyətimizin beşiyi – Şuşa” adlı tədbir təşkil olunub. Məktəblilərin ifasında rəqs, şeir və mahnı kompozisiyaları təqdim edilib.



Gəncə RMİ Nizami Gəncəvi Muzeyində Gəncə şəhər 32 saylı məktəbin 7-ci sinif şagirdlərinin iştirakı ilə “Əziz Şuşa, sən azadsan!” adlı tədbir təşkil olunub. Muzeyin bələdçisi Ləman Abdullayeva şagirdlərə Şuşanın mədəniyyəti və tarixi haqqında məlumat verib. Samux rayon Heydər Əliyev Mərkəzi və Samux Rayon Təhsil Şöbəsi birgə “Könlüm keçir Qarabağdan” adlı tədbir təşkil edib. Rayon məktəbliləri tərəfindən musiqilər səsləndirilib, rəqs nümunələri təqdim olunub.

## Vətənin qəhrəman övladları




Sumqayıt RMİ Sumqayıt şəhər MKS-nin Mərkəzi uşaq kitabxanasında 1 nömrəli tam orta məktəbin 4-cü sinif şagirdləri və müəllim kollektivinin iştirakı ilə 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısı və Vətən müharibəsi şəhidi Ramil Quliyevə həsr olunan “Bir ömür yaşandı nağıllar kimi” adlı tədbir keçirilib. Tədbirdə şagirdlərin ifasında mahnı və şeirlər səsləndirilib.

RMİ-nin tabeliyində fəaliyyət göstərən Şuşa şəhər Niyazi adına Uşaq incəsənət məktəbinin direktoru və müəllimləri Vətən müharibəsinin şəhid baş leytenantı Mixail Həmidovun ailəsini ziyarət ediblər. Şuşa Dövlət Rəsm Qalereyasının kollektivi Aprel döyüşlərində fərqlənərək medal qazanan, Vətən müharibəsində şəhid olan mayor Elçin Alıyevin ailəsinə baş çəkiblər.

Kürdəmir RMİ İmişli rayon Mədəniyyət Mərkəzinin bir qrup əməkdaşı Aprel döyüşlərinin şəhid baş leytenantı Cavid Dədəkişiyevin anım günü ilə bağlı ailəsini və məzarını ziyarət ediblər.

Şəmkir RMİ Daşkəsən rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidi Elnur Bağırovun əziz xatirəsinə həsr olunmuş “Zəngin mənəviyyata sahib olan qəhrəmanımız” mövzusunda anım tədbiri keçirilib. Tədbirdə şəhidin şəxsi əşyalarından və fotolarından ibarət sərgi nümayiş etdirilib.

Bərdə RMİ Tərtər rayon MKS-nin Hüsənli kənd kitabxana filialında Vətən müharibəsi şəhidlərinin anım günü ilə əlaqədar “Vətən qəhrəman övladlarını unutmur” adlı tədbir keçirilib.

## “Mədəniyyət kəndlərdə” layihəsi davam edir



Masallı RMİ-nin təşəbbüsü və dəstəyi ilə ötən ildən həyata keçirilən “Mədəniyyət kəndlərdə” layihəsi bu il də davam edir. Layihənin bu il ilk tədbiri Viləş kəndində reallaşıb.

Tədbirdə çıxış edən Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov layihə çərçivəsində qarşıya qoyulmuş hədəflər barədə danışıb. Bildirilib ki, yerlərdəki müəssisələrin fəaliyyətinin yeni nəzəri-konseptual yanaşmalara və çağırışlara uyğun qurulması, həmçinin gənc istedadların aşkarlanaraq müəssisələrin işinə cəlb edilməsi prioritet vəzifələrdəndir.

Masallı Rayon İcra Hakimiyyəti başçısının müavini Aybəniz Qafarova çıxışında layihənin gənclərin yaradıcılıq sahələrinə marağının artmasına vəsilə olacağını qeyd edib.

Viləş kəndindən olan iki şəhid anası Ziba Əsgərli isə tədbirin yaşadığı kənddə təşkil olunmasını böyük sevinc hissi ilə qarşıladığını deyib.

Çıxışlardan sonra qonaqlar və yerli sakinlər N.Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzinin tabeliyindəki Viləş kənd klubunun təşkil etdiyi istedadlı gənclərin əl işlərindən ibarət sərgi ilə tanış olublar. Sonra Mədəniyyət Mərkəzinin sənətçiləri geniş konsert proqramı ilə çıxış ediblər.

Tədbirin sonunda mədəni-kütləvi tədbirlərdə fəal iştirak edən məktəblilərə regional idarənin təşəkkürnamələri təqdim olunub.

“Şuşanın abidələri”

## Hər məhəlləsi tarix çağıran şəhər

*əvvəli səh. 1-də*

Evin uzadılmış düzbucaqlı formasına malik planı, ara divarı boyunca inşa edilmiş və birinci mərtəbədəki xidməti otaqları ikinci mərtəbədəki yemək və yaşayış otaqları ilə birləşdirən pilləkənlə diqqət çəkir. Evin tamamilə parad xarakteri daşıyan üçüncü mərtəbəsi iri zal və onun yanlarında yerləşən qonaq otaqlarından ibarət olub. Evin həyətə baxan fasadında üçmərtəbəli açıq veranda yerləşir. Tikilinin yan tərəfindəki açıq daş pilləkən bu verandalara aparır.

Bu malikanənin otaqları xidmət məqsədinə uyğun olaraq müvafiq formada inşa edilib. Zəngin Şuşa evləri üçün xarakterik olan böyük zal formalı qonaq otağı ilə yanaşı, burada yemək və yataq otaqları da istifadə profilinə uyğun memarlıq formalarına malikdir.

Onu da qeyd etmək lazımdır ki, Şuşanın əksər ev və saraylarından fərqli olaraq Hacı Qululların mülkü üçün tikilinin bütün fasadlarında yerləşən çoxlu sayda geniş pəncərələr xarakterikdir. Pəncərələr hamısı şəbəkə ilə işlənib.

### İkimərtəbəli karvansara

Karvansaralar Şuşanın memarlıq abidələri içərisində xüsusi yer tuturdu. Tarixçi alim, akademik Yaqub Mahmudov və professor Camal Mustafayevin “Şuşa – Pənahabad” kitabında bu barədə



məlumat verilir. Kitabda tarixçi M.Baharlının verdiyi məlumata istinadən bildirilir ki, Şuşada ilk karvansaraların tikintisi ilk yaşayış məhəlləsinin – Təbrizli məhəlləsinin meydana gəlməsi ilə eyni vaxta təsadüf edir. Bu dövrdə Şuşanın imkanlı adamlarından olmuş Uğurlu bəy, Hacı Əmiraslan bəy, Hacı Hüseyn bəy və başqaları “Aşağı bazar” və “Meydan” deyilən yerlərdə karvansaralar tikdirib istifadəyə veriblər. Bu karvansaralar Şuşanın bazar kompleksinin əsas tikililərindən hesab olunurdu. Şuşada karvansara tikintisi sonralar da davam etdirilmişdi. XIX əsrin sonlarına yaxın Şuşada artıq 10 karvansara fəaliyyət göstərirdi. Onların arasında Hacı Abbas, Qatırçı Murad, Xanlıq Muxtar, Xan qızı və s. karvansaralar xüsusilə seçilirdi.

XIX əsrin ikinci yarısında dindar varlılardan olan Məşədi Hüseyn Mir Səyyaf oğlu (Mirsiyab) Hacı Əmiraslan bəyin Şuşanın “Şeytanbazar” hissəsində mehmanxana tipli ikimərtəbəli karvansaralarını alandan sonra söküb yerində təzəsini tikdirib. Buna görə karvansara xalq arasında “Hacı Səyyaf oğlu karvansarası” kimi tanınıb.

Bu tikili istər böyüklüyünə, istərsə də memarlıq xüsusiyyətinə görə şəhərdəki digər karvansaralardan seçilib. Birinci mərtəbədə 25 dükan, dəlləkxana, çəkməçi, dərzi, sərrac (yəhər düzəldən), papaqçı, nalbənd və s. dükanlar bir neçə ticarət kontoru, habelə dini ayinləri icra etmək üçün şəhərdəki məscidlərin bəzilərindən böyük məscid olub. İkinci mərtəbədə isə tacir və səyyahların, ümumiyyətlə, şəhərin qonaqlarının dincəlməsi üçün 25 mənzil vardı. Qeyd edək ki, şəhər işğal olunana qədər karvansarada örtülü bazar fəaliyyət göstərib.

### Şirin su hamamı

Şuşa şəhəri burada tikilmiş hamamların həm sayına, həm də orijinal memarlıq üslubuna görə şöhrət qazanmışdı. Hamamların bəzəklərində müxtəlif növ kaşılardan, rəngarəng şüşə və mərmərdən geniş istifadə olunurdu. “Şuşa



– Pənahabad” kitabında qeyd edilir ki, Şuşada ilk hamamı Qarabağ xanı İbrahimxəlil xanın əmisi oğlu Əbdüsəməd bəy tikdirib. Sonralar Şuşa hamamlarının sırasına “Aşağı bazar” deyilən yerdə inşa edilmiş Uğurlu bəy hamamı, Mirzəli hamamı və başqaları da əlavə olunmuşdu. Ümumiyyətlə, XVIII-XIX əsrlərdə Şuşada 20-yə qədər hamam şəhər sakinlərinin istifadəsində olub.

Şuşanın özünəməxsusluğu ilə seçilən memarlıq abidələrindən biri də Şirin su hamamıdır. Xan qızı Xurşidbanu Natəvan bu hamamı 1878-1880-ci illərdə Qarabağın zəngin tacirlərindən olan Hacı Rzaqulu bəy Ağakişi bəy oğlu Şəmsiyevlə birlikdə Bazar başında, Şuşanın Merdinli məhəlləsinin girişində tikdirib. Hamamın memarı Kərbəlayı Səfixan Qarabağidir.

Bu hamam Xurşidbanu Natəvanın 1873-cü ildə Şuşaya çəkdirdiyi içməli su ilə işlədiyinə görə “Şirin su hamamı” adlandırılıb. Hamam həftənin tək günlərində kişilərə, cüt günlərində isə qadınlara xidmət edirdi.

Ölkə əhəmiyyətli tarixi abidə kimi qeydə alınan Şirin su hamamı Şuşanın ermənilər tərəfindən işğalına qədər fəaliyyət göstərib.

***

Qeyd edək ki, Azərbaycan Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli qərarı ilə dövlət qeydiyyatına alınmış tarix və mədəniyyət abidələrinin siyahısında Şuşa rayonu üzrə 210 nümunə var. Bu abidələrdən 1-i dünya əhəmiyyətli memarlıq, 44-ü ölkə əhəmiyyətli memarlıq, 5-i ölkə əhəmiyyətli arxeoloji, 155-i yerli əhəmiyyətli memarlıq, 5-i yerli əhəmiyyətli bağ-park, monumental və xatirə abidələridir. Memarlıq abidələrindən 141-i Şuşa Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisində yerləşir. Xatırladaq ki, Şuşa Tarix-Memarlıq Qoruğu 2001-ci ildə UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan maddi mədəni irsin ilkin siyahısına daxil edilib.

Prezident İlham Əliyevin 7 may 2021-ci il tarixli sərəncamı ilə qala-şəhərimiz Azərbaycanın mədəniyyət paytaxtı elan edilib. Prezidentin 22 iyun 2021-ci il tarixli fərmanı ilə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılıb.

**Nurəddin Məmmədli**

# "Teatr zamanın özü qədər ciddi bir oyundur"

## Xalq artisti Vaqif Əsədov: "İstərdim ki, teatr sahəsi ayrı bir modelin arxasınca getdiyi istiqamətdən geri dönüb öz yoluna, estetikasına, poetikasına qayıtsın..."

Müraciət etdiyi hər bir mövzunu özünəməxsus şəkildə, çağdaş tamaşaçını təsirləndirən formada quran tanınmış rejissor, Xalq artisti Vaqif Əsədov bu ay 75 illik yubileyini qeyd edir. Yubilyar sənətkarla danışıb görüş yerini təyin edəndə İçərişəhərə, hazırda çalışdığı Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzinə gəlməyimizi təklif etdi.

Yaradıcılıq mərkəzinə daxil olub, buradakı pozitiv ab-havanı görəndə ilk sözüm "Vaqif müəllim, nə gözəl yerdə məkan eyləmisiz" olacaqdı. Lakin həmsöhbətimin özünəməxsus yumoru, fikirləri və yanaşması ilə söz bizi, biz də sözü tutub uzaqlara getdik...

– 2019-cu ildə, "Nəsimi İli"ndə bu mərkəzdə tamaşa hazırladım, elə o vaxtdan buradayam. Bu ocaq mənə çox doğma gəlir, özümü rahat hiss edirəm. Burada ənənəvi teatrdan qaça bilirsən, daha çox sərbəstlik var, müxtəlif formalarda işləmək mümkündür. Adi bir poeziya gecəsini biz tamaşaya çevirə bilirik. Amma eyni zamanda çətinlikləri də var. Gərək elə seçim edəsən ki, düz olsun. Boynuma alıram, bəzən bir işi başlayırsan, görürsən səhv yoldasan, tez qayıdırsan...

*– Vaqif Əsədov bu yaşında, bu peşəkarlıqla seçimində səhv edə bilirmi?*

– Əlbəttə olur. Teatrın çox vacib bir sirri var. Mən bunu dəfələrlə vurğulamışam. Bizim bir xalq, millət kimi özümüzün canımızda olan teatr rüşeymi ki var, bax o rüşeymlə gedirsən o dövrə və baxıb görürsən ki, sözün əsl mənasında, orada teatr deyilən bir anlayışın dolğun variantı yaşayırmış. Biz indi onun adına meydan teatrı deyirik. Yəni teatr bir oyundur. Amma bu oyun zamanın özü qədər ciddi bir oyundur. Bu oyunu saxlamaq və yaşatmaq üçün gərək daim özünə deyəsən ki, sən teatrdasan. Bəzən reallıq adamı aparır və bu təbiidir. Gedirsən o reallığın arxasınca və sevindirici haldır ki, yarı yolda sən bu reallığı anlayıb geri dönürsən.

*– Deyirsiniz ki, teatr ciddi bir oyundur. Teatr daha ciddi oyundur, yoxsa həyat?*

– Həyatın öz həqiqətləri var. O, gözlənilməzlikləri ilə hazır olmadığın hadisələrə səni tuş edir. Qəfildən bu ciddiliklə üzüzə qalıb nə edəcəyini bilmirsən. Teatrda isə bir az fərqlidir. Teatrda sən başına gələcəyindən xəbərdarsan, amma bunu o qədər məharətlə oynamalısan, bu oyunu bütün səmimiliyi ilə elə qəbul etməlisən ki, sənə baxan tamaşaçı bunun, həqiqətən də, indi baş verdiyinə, sənin bu situasiyaya indi düşdüyünə inana bilsin. İndi özünüz deyin, bunun hansı daha çətindir? Yaşantı baxımından həyat daha ağırdır. Oynayıb, yaşamaq baxımından isə teatr daha çətindir. Bilirsiniz, tamaşaçı pul ödəyib gəlir teatra və bilir ki, oradakı aktyor Vaqifdir, Həsəndir. Bilir ki, həmin əsəri filan yazıçı yazıb, hadisəni də bilir. Amma onun təskinliyə ehtiyacı var. İnsan bütün bunları bilə-bilə öz daxili çırpıntılarını bu qəhrəmanlarla bölüşür və bir az təsəlli tapır. Düşünür ki, hər halda mənim vəziyyətim Aydının halından daha yaxşıdır. İnsanın teatra doğuluşundan ehtiyacı var. Olmasaydı, o, musiqini, teatrı, rəssamlığı yaratmazdı. Bu mənada deyirlər ki, Tanrı öz yaratmaq qabiliyyətindən bir az da insana verib. Məncə, bir az yox, daha çox verib.

*– İnsan və həyat həqiqətlərindən danışdınız. Bəs bugünkü teatrın həqiqəti nələrdir?*

– Ağrılı sualdır. Mən ömrümün böyük hissəsini teatra həsr etmişəm. Mənim kimi yüzlərlə insan. Ömrünü həsr etdiyin sənətin ağır xəstə olduğunu görəndə ona necə yanaşa bilərsən. Başa düşürəm ki, həyat belədir: enişyoxuşlu, tənəzzüllü, yüksəlişli. Teatrda da belə olur. Amma çox istərdim ki, bu sahə dərin, savadlı şəkildə qurulsun. Ayrı bir modelin arxasınca getdiyi yoldan geri dönüb öz yoluna, öz estetikasına, öz poetikasına qayıtsın. Bunun üçün köklü iş görmək lazımdır. Bəzən düşünürlər ki, mən çox sayda teatrın olmasının əleyhinəyəm. Yox, teatrın hər şəhərdə, hər rayonda olması daha yaxşıdır. Ancaq onun həyat tərzi tamam başqa olmalıdır. Qonşudakı kostyumun eynisini geyinməyin nə mənası var ki. Məsələn, Şəki başdan-ayağa yumordur. Şəkililər bu yumorla yaşayır. Deməli, orada satira, yumor teatrı olmalıdır. Qazaxın sağı-solu aşıq, ozan sənətidir: Borçalıdan Kəlbəcərə, Göyçədən Gədəbəyə qədər. Orada standart dram teatrının nə mənası var. Şuşa bir muğamdır. Heç bilirsiniz ki, adi "Segah"ın içərisində neçə dram hadisəsi var. Hər bir hadisə də bir tamaşanın fabulasıdır. Burada adi bir teatrın nə mənası var. Şuşada məhz muğam teatrı yaratmaq lazımdır. Bir sözlə, teatr yaşamalıdır. Bu gün bizim artıq imkanımız var ki, milli mənəviyyatımızın kökünə söykənən teatr mədəniyyətini davam etdirək. Bütün sadaladıqlarımız olandan sonra biz Azərbaycan teatrı deyə biləcəyik. Dövlət pul da verir, maaş da. Ancaq görüləcək işlər çoxdur və bunları həyata keçirmək üçün vaxt tələb olunur. Nə vaxtsa başlamaq lazımdır.



Hər dəfə gecikirik, gecikirik, gecikirik və sonra da başlayırıq bir-birimizi qınamağa (Vaqif müəllim bu yerdə dərin köks ötürür). Ümid edirəm ki, inandığım gənclər arzuladığım teatrı yaradacaqlar...

*– Naxçıvanda "Cavid" poeziya teatrını yaratmısınız. Bakıda dahi şairin 135 illik yubiley tədbiri də bir ayrı möhtəşəmliklə yaddaşlara yazıldı...*

– Sondan başlayıb əvvələ qayıtsaq, bu tədbir illərin, bəlkə də on illərin enerjisi idi. Yarımçıq qalmış hisslərimin, düşüncələrimin, duyğularımın və deyilməmiş sözlərimin toplumu idi həmin yubiley tamaşası. İnanın mənə, o tamaşanı bir həftə ərzində hazırladım. Bəzən adam düşünər ki, o boyda Cavid poeziyası bir həftəyə necə sığa bilər. O günün tamaşasının sonunda dayanıb geri dönüb baxsam, yəqin 80-ci illərin əvvəlini xatırlayaram. Həmin dövrdə ulu öndər Heydər Əliyev Hüseyn Cavidin 100 illik yubileyi ilə bağlı qərar vermişdi və o qərarın da bir bəndi Naxçıvan teatrının nəzdində "Cavid" poeziya teatrının yaradılması idi. Tam səmimi deyirəm, o vaxt məni çağırıb bu teatrı sənə tapşırırıq desəydilər, yaxına durmazdım. Təbii ki, məsuliyyətin ağırlığına görə. Bakıda bir sıra sənət adamlarına müraciət olunsa da, həmin müraciətlərə müsbət cavab gəlmədi. Seçilmiş bina da vaxtilə müxtəlif istiqamətlərdə istifadə edilmiş bir məscid idi. Mən Gəncəyə gedib "Nizami" poeziya teatrı ilə tanış oldum. Gördüm o başqa bir üslubdadır. Heç kimi gözləmədən öz içimdə doğulan teatrı yaratmağa başladım. Kəmalə Ağayevanın "Mənim tanrım gözəllikdir, sevgidir" mənzum pyesi əsasında ilk tamaşamızı təqdim etdik. 1 saat 15 dəqiqə davam edən tamaşada 72 obraz var idi. 12 aktyor hər biri bir neçə obrazda oynadı. Tamaşa Cavidin nəşi Naxçıvanda dəfn olunan gün (3 noyabr 1982-ci il – red.) göstərildi. Bakıdan gələn bütün qonaqlar tamaşanı izlədi. 80 nəfərlik zal idi. Tamaşadan sonra heç kim mənə Şeyx Sənanın saqqalı hanı, filan obrazın əlbəsəsi hanı demədi. Bizim meydan teatrının şərtlərindən ən vacibi budur – inandırmaq. O zaman başa düşdüm ki, mən düzgün yol seçmişəm.

Bir dəfə özüm Cavidi oynayanda monoloqda belə bir fikir var idi: "Ay dünya, səndə nələr var...". Birdən bu məqamda birinci sırada oturan tamaşaçı əyilib yapışdı ayağımdan və dedi ki, "Cavid əfəndi, bizi bağışla!". Deməl, sən bütün duyğuları səmimi və dolğun ötürə bilirsənsə, elə bu, tamaşaçıya bəsdir. Poeziya teatrında bir-birinin ardınca çoxsaylı tamaşalar hazırladıq.

*– Aktyor, yoxsa rejissor Vaqif Əsədov?*

– Mən bu sənətə gəlməyə hazırlaşanda həyətimizin başında bir budka düzəltmişdim. İşıq çəkib, dəmir çarpayı qoyub köçmüşdüm ora. Orada gecələr oxuyub imtahana hazırlaşırdım. Həmin gecələrin birində Cəfər Cabbarlını təzədən mütaliə edəndə gəldim çıxdım "Aydın"a. O gecə başqa bir Vaqif doğuldu. İnstituta qəbul olunanda məqsədim o idi ki, bütün bu duyğuları səhnədən deyə bilim. İllər keçdi, düzünü desəm, özümə bir aktyor kimi inamım da yox idi. Çox qısa müddətdən sonra mən başladım rejissorlara kömək etməyə, assistent, ikinci rejissor olmağa... Artıq başa düşürdüm ki, mən bu sahədə daha çox söz deyə bilərəm. Bir neçə yoxlama tamaşadan sonra məni rejissorluğa təsdiq etdilər. Aktyorluqdan rejissorluğa keçiddə maaşım 100 manat azaldı. Amma sevincimin həddi-hüdudu yox idi. Ondan sonra Moskvaya kurslara getdim və s. Teatr sənətinin möcüzəsini ilk növbədə aktyor olanda duymuşam. Sonra rejissorluqda.

Bizim nəsil hansı sahədə çalışmasına baxmayaraq, işinə məsuliyyətli yanaşırdı. O zaman Naxçıvanın teatr coğrafiyası çox dar idi. Neçə ildə bir dəfə Bakıya gəlib tamaşa oynayırdılar. Necə oldusa, biz Moskvaya, hətta beynəlxalq festivallara qədər gedib çıxdıq. Bunu ona görə deyirəm ki, insan istəsə, çox şeyə nail ola bilər...

*– Siz eyni zamanda bir sıra irimiqyaslı dövlət tədbirlərinin də quruluşçu rejissoru və ssenari müəllifi olmusunuz...*

– Bu, tamamilə başqa bir dünyadır. Naxçıvandan Bakıya gəldikdən sonra haradasa beş il bu sahədən uzaq oldum. Ulu öndər Heydər Əliyev 1994-cü ildə Mirzə Cəlilin 125 illik yubileyi ilə bağlı fərman verdi. Quruluş verdiyim bu yubiley tədbiri dövlət tərəfindən yüksək qiymətləndirildi. Sonra Hüseyn Cavidin 120 illiyi, Səməd Vurğunun 100 illiyi, Həsən Turabovun 80 illiyi və bir çox yubiley tədbirlərini hazırladım.

*– Bir də həyatınızın Gənc Tamaşaçılar Teatrı səhifəsi var...*

– Bakıya gələndə bu teatrı özüm seçdim. Çünki orada Azər Paşa tələbə yoldaşım idi. Aktyor heyəti də mənə doğma idi. Həm də etiraf edim ki, Akademik Milli Dram Teatrından çəkinirdim. Bu o demək idi ki, biz sənətə daha ciddi münasibət bəsləyirdik. Gənc Tamaşaçılar Teatrında ilk işim İsgəndər Coşqunun "Açıl bənövşəm, açıl" uşaq tamaşası oldu. Amma oradakı fəaliyyətimdə özümə görə siyahı tutsam, ilkin tamaşa kimi "Mağara"nı qeyd edərəm. Sonra "Məhv olmuş gündəliklər", "Yarımçıq qalmış..." və "Oqtay Eloğlu". Baxmayaraq ki, uzun dövr keçib, amma ciddi iş kimi qəbul etdiyim bunlardır və çox təəssüf ki, azdır.

*– Sənətinizdə dönüş nöqtəsi kimi hansı məqamı qeyd edərdiniz?*

– Dönüş nöqtəsi. Buna həqiqəti anlamaq anı deyərdim. Dərdi deyil, anı deyərdim. Bu, bir anda gəlmir. Sənətdə bu an yavaş-yavaş gəlir. Söhbətin əvvəlində dediyim kimi hətta bu yaşda da bəzən çaşırsan, yolu itirirsən. Sənətin məğzini mən artıq 70-ci illərdə öyrənməyə başladım. Müəllimlərim görkəmli sənətkarlar Mehdi Məmmədov və Nəsir Sadıqzadə olub. Onlar bizə birinci fikri və düşüncəni təlqin ediblər. Teatra işə gələndə artıq Nəsir müəllimlə yanaşı gedərək çox şeyi başa düşdüm.

*– Bu il ölkəmizdə "Şuşa İli"dir. Şuşa həm də mədəniyyət paytaxtımızdır. Əlamətdar illə bağlı planlarınız varmı?*

– Mən heç bir ölkə əhəmiyyətli hadisəyə biganə qalmamışam. Qarabağla bağlı "Mağara", daha sonra "Yarımçıq qalmış..." tamaşalarım, Xocalı ilə bağlı Gənclər və İdman Nazirliyinin sifarişi ilə hazırladığım tamaşa da maraqla qarşılanmışdı. Hazırda Leyli Salayevanın hekayəsi əsasında tamaşa üzərində çalışırıq. Əsər Xocalı sakinləri ilə bağlıdır. "Yarımçıq qalmış..."da belə bir ifadə var idi: "Şuşanı aldınızmı?". Bu gün bizim ən böyük əsərimiz elə Şuşanın azadlığıdır. Ən böyük əsəri Prezidentimiz, qəhrəman hərbçilərimiz, şəhidlərimiz yazdı. Sözsüz ki, zamanla bu mövzuda yeni-yeni əsərlər meydana gələcək. Mən 40 il öncə Vaqifin məqbərəsinin açılışında iştirak etmişəm. Ancaq obyektiv səbəblərdən azad Şuşaya gedə bilmədim. Mən ora işlə gedəcəyəm, sadəcə, gəzib-görməyə deyil.

*– 75 yaşınızda kiminlə rastlaşmaq istəyərdiniz?*

– Naxçıvanda bizim məhəllə çox şuluq məhəllə idi. Bir qız vardı. Hər dəfə o, dərsdən gələndə görərdim. Bir gün həmin qız yolu başqa istiqamətdən saldı və mən də düşdüm onun arxasınca. Qız rəfiqələri ilə gedib Pionerlər evinə girdi. Mən də içəri daxil olub gördüm ki, biri çalır, biri oxuyur. Rəfiqələr 2-3 gün ora gəldilər, daha sonra görünmədilər. Ancaq mən ora gəlməyə davam etdim.

*– Deməli, ilk sevginiz sizi düz istiqamətə aparmışdı...*

– Bəli. Əgər o vaxt həmin hadisə baş verməsəydi, mən ora getməsəydim, indi Vaqif tamam başqa bir istiqamətə gedəcəkdi. Bu gün kiminlə rastlaşmaq istərdiniz sualınıza da cavab olaraq deyərdim ki, mən indi o həmin başqa istiqamətdə olan Vaqifi görmək istərdim. O Vaqif haradadır, görəsən?!

*– Vaqif müəllim, 75 illiyiniz münasibətilə sizi təbrik edir, cansağlığı və yeni yaradıcılıq uğurları arzulayırıq.*

**Lalə Azəri**

# Nağıl kimi ömür

"Biri vardı, biri yoxdu" ilə başlayır bütün nağıllar. Hər birinin də sonunda bir ümid, inam, nikbinlik olur. Həyata, yaşamağa, yaratmağa, sevməyə, mübarizəyə səsləyir o nağıllar və biz nə qədər böyüsək də, onların şirinliyində, sehrində qalırıq.

Ömrünü sənətə, səhnəyə, yaradıcılığa həsr edən və bunun müqabilində kimsədən umacağı olmayan, öz hücrəsinə çəkilib vurğunu olduğu teatra sevgi və sədaqətini səhnədən-səhnəyə, ölkədən-ölkəyə daşıyan az adam tapılar. O da zamanımızın teatr fədaisi, sənət dərvişi hesab olunacaq insanlardandır. İllədir yaşadığı Estoniyada Azərbaycan teatrını, kukla sənətini çətinlikləri dəf edərək, sevgi ilə tanıdan Rauf Avşarov. Tallin şəhərində 26 ildir fəaliyyət göstərən "Avşar" kukla teatrının yaradıcısı, Azərbaycanın Əməkdar artisti...

Ömrünün 70-ci dayanacağından tamaşaçılarına əl yelləyən teatr sevdalısı nağıllarla iç-içə bir sənət həyatı yaşayıb.

Onunla internet üzərindən (sosial şəbəkədə ünsiyyətdə olduğum ömür-gün yoldaşı, sənət dostu Xatirə Avşarovanın köməkliyi sayəsində) qurulan qısa söhbətimizdə maraqlı bir detal diqqətimi cəlb etdi. Ona görə, dünyanın ən müqəddəs işi uşaqları sevindirmək və onları sənətlə sehrləməkdi. Bilirəm, "zamanə uşaqları" dediyimiz texnologiya əsrinin yetirmələri ilə buna nail olmaq elə də asan deyil. Amma o, böyük sevgi və ən əsası da inam ilə bunu edir. Təbii ki, peşəkarlıq, sənətə sevgi, genetik kod kimi istənilən amili arqument kimi önə çəkmək olar. Məncə, o, düzəltdiyi, oynatdığı, hərəkətə gətirdiyi kuklalara, onların "can"lı olmasına ən əvvəl özü inanır. Belə olmasaydı, səhnələşdirdiyi nağıl-tamaşalar belə maraqlı, inandırıcı, əyləncəli olmazdı. Sözsüz ki, bunların ən başında gördüyün işə sevgi və bağlılıq durur.

Qəribliyin ruhuna hopduğunun hiss olunduğu söhbətdə də o, yeni səhnə işləri, Azərbaycan teatrını, onun vasitəsilə ədəbiyyatı və mədəniyyətini sevdirməklə bağlı istək və arzularını dilə gətirdi, teatrından, böyük çətinliklərə müqavimət göstərən kiçik yaradıcı heyətlərindən bəhs etdi: "Müstəqil teatr yaratmaq və yaşatmaq elə də asan deyil. Xüsusən də başqa ölkədə. Düzdür, artıq bura da bizə doğmadır. Amma Vətən də ana kimi təkrarsız, müqayisəsiz sevgi ünvanıdır və mən onu ötən hər anımda daha böyük məhəbbətlə sevir və təbliğ etməyə çalışıram.

Yaş ötdükcə, zaman atını daha cəld çapdıqca ömür, ötüb-keçən illər də ildırım kimi beynindən keçir və səni bir az amansız, bir az da şirin suallarla baş-başa qoyur. Bu məqamda yeganə təsəlli və sevinc mənbəyi sevdiyin işlə məşğul olmaq, bununla insanlara yararlı olduğunu hiss etdirməkdir. Ömrümün 70-ci səhifəsində mənim də təsəllim, qürurum məhz budur. Təbii ki, bu, təkcə mənim əməyim deyil. Bu illər ərzində mənə ən böyük dəstək nümayiş etdirən sənət dostum Xatirə Avşarovadır. Mənim emalatxana divarlarına, tək tamaşaçılıq nümayişlərə qapanmağıma mane olub, bütün layihələrimi, səhnə, sənət nümayişlərimi çoxluğun önünə çıxarıb, kütləvi tamaşaçı ilə görüşdürüb...".



1952-ci il aprelin 17-də Xalq artisti Muxtar Avşarovun ailəsində dünyaya göz açan Rauf uşaqlıqdan teatra bağlı olub. Atası ilə tez-tez teatra gedər, səhnə arxasında saatlarla dayanıb yaradıcılıq prosesini izləməkdən zövq alarmış. Atasının iştirak etdiyi kino çəkilişi meydançaları da diqqətini cəlb edirdi. Amma teatr sevgisi daha üstün idi və beləcə, o, ömrünü teatra həsr edir. Baxmayaraq ki, 1969-cu ildə ekranlaşdırılan "Dəli Kür" filmində epizodik rol da oynamış, bundan sonra uşaq filmlərində çəkilmək üçün dəvət də almışdı. Amma atası sənətin çətinliyini yaxşı bildiyindən buna heç cür razılıq vermir. Oğlunu başqa sahə ilə məşğul olmağa sövq edir.

Bunun nəticəsi kimi Rauf Avşarov 1979-cu ildə indiki ADPU-nun Bədii qrafika fakültəsinə daxil olur. Təhsilini başa vurduqdan sonra Tallinə köçür. Orta məktəblərin birində pedaqoq kimi çalışan Raufu teatr sevgisi də qarabaqara izləyir. Tanınmış kukla rejissorlarından birinin kursuna gedir, sənətin incəliklərini öyrənməyə və tətbiq etməyə başlayır.

Dərs dediyi məktəbdə istedadlı uşaqları ətrafına toplayaraq maraqlı tamaşalar hazırlayır, məhdud auditoriya qarşısında olsa da, çıxışlar edir. Zamanla bütün bu məşğuliyyətin onda dərin iz buraxdığını anlayan kuklaçı 1996-cı ildə özünün müstəqil teatrını yaradır.

Teatrın repertuarını formalaşdırıb, aktyor truppasını genişləndirdikcə pedaqoqluqdan da ayrılır və bütün fəaliyyətini teatra bağlayır.

Hazırda Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin qismən dəstəyi ilə fəaliyyətini davam etdirən "Avşar" kukla teatrı müxtəlif ölkələrdə festival və qastrollarda iştirak edib. Rauf və Xatirə Avşarovlar Azərbaycanda keçirilən kukla teatrı festivallarına da böyük həvəslə qatılıb, eləcə də respublikamızda müxtəlif kukla teatrlarında rəngarəng mövzulu tamaşalar hazırlayıblar.

"Olduğum hər yerdə təqdimatımdan öncə Vətənimin adı çəkilir, "Azərbaycanın Əməkdar artisti" sözləri deyilir. Məhz bu məni ən çox qürurlandıran məqamdır və buna görə bütün çətinliklərə rəğmən teatrımızın yaşaması, daha çox tamaşaçıya yetməsi üçün əlimizdən gələni edirik. Bu, bu, mənim, Xatirə xanımın yox, Azərbaycanın, onun mədəniyyətinin adıdır və bu, bizim məsuliyyətimizi daha da artırır" – deyən yubilyarın arzusu yeni səhnə nümunələrini estoniyalı uşaqlarla yanaşı azərbaycanlı balaca tamaşaçılara da göstərmək, yenidən Vətəndə olmaq, paytaxt və bölgələrdə teatrsevərlərlə görüşməkdir.

Avropada ilk Azərbaycan kukla teatrının yaradıcısı indiyədək ərsəyə gətirdikləri tamaşalar barədə də danışmağı unutmadı: "Hazırladığımız səhnə işləri arasında Azərbaycanın xalq nağılları, klassik və müasir ədəbi nümunələri daim üstünlük təşkil edib. Bu mənada Qız qalası əfsanəsi əsasında pantomima tamaşa, "Şah və bostançı", "Ağ daşın sirri", "Cırtdan", "Məşədi İbad", "Üç keçi", "Şahın başı hardadır?", "Ölüm rəqsi", "Sinema", "Məhəbbət hekayəsi" kimi tamaşaları xüsusilə vurğulamaq istərdim".

Hazırda Azərbaycan rəssamlarının miniatürləri əsasında tamaşa hazırladıqlarını deyən R.Avşarov Nizaminin "Xəmsə"sinə də müraciət edəcəklərini deyir.

Həmsöhbətim eston tamaşaçıları ilə yanaşı orada yaşayan teatr həvəsli həmyerlilərimizdən də söz açdı: "Burada teatra sevgi, maraq yüksəkdir və bu, uşaqlara çox erkən yaşlarından aşılanır. Tamaşaçılar arasında iki yaşından da kiçik uşaqları görərkən, təbii ki, maraq və həsəd məni götürürdü. Amma sevinirəm ki, bizim teatra burada yaşayan həmvətənlərimiz də böyük həvəslə gəlirlər, eləcə də ölkə daxilində bizi müxtəlif şəhərlərə dəvət edirlər. Bu, bizi həm sevindirir, həm də məsuliyyət hissimizi artırır. Axı biz təkcə özümüzü yox, həm də hamımızın doğma vətənini təmsil edirik. Mənə elə gəlir ki, bundan böyük sevinc yoxdur...".

**Həmidə Nizamiqızı**

№29 (1902)
15 aprel 2022
www.medeniyyet.az

# Əsgərlərindən öndə...

44 günlük Vətən müharibəsində yüzlərlə zabitimiz ən çətin məqamlarda tabeliyindəki əsgərlərdən önə keçərək sinəsini düşmən mərmisinə sipər edib. Şəhid baş leytenant, tağım komandiri Vüsal Babayev də belə qəhrəmanlarımızdan biridir.

Vüsal Sübbuh oğlu Babayev 1992-ci il yanvarın 8-də Bakı şəhərinin Pirallahı adasında dünyaya gəlib. 186 nömrəli orta məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olur. 2014-cü ildə həmin məktəbi leytenant rütbəsi ilə bitirib xidmətə başlayır.



Vüsal Babayev 2015-ci ildə Goranboy rayonunda N saylı hərbi hissədə, 2018-ci ildə isə Abşeron rayonunda ağır artilleriya hissəsində xidmət edib. Xidməti dövründə məsuliyyəti və peşəkarlığına görə fəxri fərman və medallarla təltif olunub. O, bir çox hərbi təlimlərdə, o cümlədən 2016-cı ilin Aprel döyüşlərində iştirak edib.

2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlayan kimi digər silahdaşları kimi Vüsal da ön cəbhədə yerini alır. Bir çox döyüşlərdə xüsusi qəhrəmanlığı ilə seçilir. Onun sonuncu döyüşü oktyabrın 21-i Füzuli rayonunun Gecəgözlü kəndi istiqamətində olur. Vüsal yaralı döyüş yoldaşını xilas etmək üçün onun yanına gedərkən özü də yaralanır. Bu zaman Orxan və Çərkəz adlı əsgərləri onu döyüş meydanından çıxarmaq istəyirlər. Bu dəfə onların üçü də düşmən mərmisinin partlaması nəticəsində bir yerdə şəhid olurlar.

Şəhid qəhrəmanın həyat yoldaşı, hazırda Yasamal rayon MKS-nin 4 saylı kitabxana filialının müdiri vəzifəsində çalışan Aynur Babayeva bildirir ki, Vüsalla 2015-ci ildə ailə həyatı qurublar. Selcan və Rüqəyyə adlı iki qız övladları var: "Vüsalda əsl hərbçilərə məxsus ciddiyyət olsa da, evdə çox mülayim idi. Övladlarına həddən artıq bağlı idi. Deyirdi ki, mən kasıb ailədə böyümüşəm. Əlimdən gələn hər şeyi edəcəyəm ki, övladlarım əziyyət çəkməsin. Mən ondan yaşca böyüyəm. Həmişə zarafat edirdi ki, sən yaşlanıb qocalacaqsan, amma mən qocalmayacağam. Bu gün Vüsalın adı qızlarımızın dilindən düşmür. Söz düşəndə "Atamız ölməyib, şəhid olub" deyirlər...".

Aynur xanım bildirir ki, Vüsal ailəsinə narahatlıq verməmək üçün bir çox şeyi onlardan gizlədib: "Aprel döyüşləri ərəfəsində telefonla danışırdıq, deyirdi ki, Bakıda hərbi hissədəyəm. Aprel döyüşləri bitəndən, evə gələndən xeyli vaxt sonra dedi ki, mən döyüşlərdə iştirak etmişdim. Vətən müharibəsi döyüşlərində də əlaqə saxladığımız müddətdə daim hər şeyin yaxşı olduğunu bildirirdi. Şəhid olduğu günə qədər bizimlə danışdı. Sonuncu danışığımız şəhid olmasından bir neçə saat əvvəl oldu. Mənə son sözü "Uşaqlardan muğayat ol, onları qoru" oldu...".

Vüsal Babayev oktyabrın 25-də Bakıda II Fəxri xiyabanda torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Allah rəhmət eləsin.

**Nurəddin**

# "Qarabağın üç şaireyi-möhtərəməsi" kitabı nəşr olunub



Azərbaycan Dövlət Tərcümə Mərkəzi "Şuşa İli"nə töhfə olaraq "Qarabağın üç şaireyi-möhtərəməsi" kitabını ərsəyə gətirib. Kitabın müəllifi tanınmış ədəbiyyatşünas-alim, filologiya elmləri doktoru Vilayət Quliyev, redaktoru İradə Musalıdır.

Kitabda XIX əsr Şuşa ədəbi mühiti, bu mühitdə doğulub-böyümüş, yaradıcılıqları ilə klassik Azərbaycan poeziyasında dərin izlər qoymuş Xan qızı Natəvan və Fatma xanım Kəminə, eləcə də ömrünün bir hissəsi Şuşa ilə bağlı olan Aşıq Pərinin həyat hekayəsi əks olunub.

Dövlət Tərcümə Mərkəzindən bildirilib ki, nəfis tərtibatlı nəşrdə qədim Şuşanın məhəllə və küçələrini, tarixi, mədəni abidələrini, şeir və muğam məclislərini təsvir edən rəsm və illüstrasiyalar da verilib.

# Qobustan qayaüstü rəsmləri və xalça naxışları

## Tarix İnstitutunda elmi seminar



Aprelin 13-də Azərbaycan Milli Elmlər Akademiyasının A.Bakıxanov adına Tarix İnstitutunda elmi seminar keçirilib.

Bu barədə Tarix İnstitutundan məlumat verilib. Bildirilib ki, seminarda AMEA-nın Coğrafiya İnstitutunun dissertantı Şakir Həmzəyev "Qobustan qayaüstü petroqlifləri və Azərbaycan xalça işarələrinin açılmamış sirləri" mövzusunda məruzə edib. O bildirib ki, tariximizin daş kitabəsi – Qobustan bəşər cəmiyyətinin ilkin dövründə yaşayan insanların həyat tərzini, məişətini, məşğuliyyətini, mədəniyyətini, incəsənətini əks etdirir. Xalçalar və xalça işarələri dünyanın 17 ölkəsində olan qayaüstü rəsm və işarələrin sivil davamı kimi antik dünyamıza sanki mənəvi yollar açıb.

Daha sonra Xəzər Universitetinin dissertantı Xaqani İsmayılın "Şumer tarixinə aktual baxış" mövzusunda məruzəsi dinlənilib.

Məruzələr ətrafında müzakirələr aparılıb və məruzəçilər mövzu ilə bağlı sualları cavablandırıblar.

# Qan yaddaşımızın "Tanrı yoxuşu"ndan keçən səhifəsi

## Kəlbəcərin işğalı zamanı yaşanan daha bir müsibətdən bəhs edən kitabın təqdimatı

Birinci Qarabağ müharibəsi zamanı baş verən dəhşətli və amansız hadisələrin çoxundan bu günə qədər də xəbərsiz qaldıqlarımız var. Bunlardan biri də 1993-cü ilin aprelində Ermənistan silahlı qüvvələri Kəlbəcəri işğal edərkən mühasirədə qalanların üzləşdiyi müsibətlərdir.

Laçının Fərraş kəndində qalan 25 əsgərin mühasirə gündəliyi, düşmənlə mübarizə aparan 50-dən çox hərbçinin, Kəlbəcərin Zar, Qaraçanlı, Çıraq və digər kəndlərində mühasirədə qalmış 300-dək mülki sakinin taleyi, onların başına gələnlər, ermənilərin törətdiyi qətliamlar və vandalizm hərəkətləri, qarlı-çovğunlu havada sərt təbiətlə, azğın və amansız düşmənlə ölüm-dirim mübarizəsi aparanların üzləşdikləri məhrumiyyətlər, həyat mücadiləsi olduqca dözülməz, dözülməz olduğu qədər də ağrılı və faciəlidir.

Bu barədə əslən Kəlbəcərdən olan araşdırmaçı-jurnalist Elxan Salahovun qələmə aldığı "Tanrı yoxuşu" kitabında bəhs olunur. Aprelin 13-də Milli Kitabxanada kitabın təqdimat mərasimi keçirilib.

Təqdimat mərasimini giriş sözü ilə açan Milli Kitabxananın direktoru, professor Kərim Tahirov Kəlbəcərin işğal günlərindən, acı xatirələrdən bəhs edən kitabın həmin tarixi öyrənmək sahəsində sənədli əsər olduğunu deyib. Bildirib ki, kitabda erməni quldurlarının mühasirəsinə düşənlərin başına gətirilən müsibətlər konkret faktlar və şahid ifadələri əsasında təsvir edilib. Direktor qeyd edib ki, bu mövzuda kitablar yaşadığımız ağrı-acılı tarix, qan yaddaşımız haqqında gələcək nəsillərə ərməğandır.





Təqdimat mərasimində Mətbuat Şurasının sədri Əflatun Amaşov, Azərbaycan Yazıçılar Birliyinin katibi Rəşad Məcid, "Azərnəşr"in direktoru, Əməkdar jurnalist Əlövsət Ağalarov kitabla bağlı fikirlərini bölüşüblər.

Qeyd edilib ki, kitabın hər fəsli ayrıca bir əsər mövzusudur. Müəllif hadisənin iştirakçıları, şahidləri ilə dəfələrlə görüşərək yaxın tariximizin ağrılı səhifələrindən biri haqqında olduqca maraqlı bir kitab ərsəyə gətirib. Kitabda ayrı-ayrı şahidlərin söylədikləri xatirələrdən başqa, həm də Kəlbəcər şəhidləri haqqında da məlumatlar verilib. Bu mövzuda kitabların hamısı bir salnamədir.





Qeyd olunub ki, Elxan Salahovun bundan öncə qələmə aldığı "Qanlı kaha" kitabında Kəlbəcərin işğalının acı bir səhifəsi, Başlıbel kəndində törədilən kütləvi qətliam təsvir olunub.

Çıxış edənlər müəllif Elxan Salahova bu mövzuda yeni kitabın ərsəyə gəlməsinə görə təşəkkürlərini bildirərək yeni yaradıcılıq uğurları arzulayıblar.

YAP Kəlbəcər rayon təşkilatının sədri Həbib Misirov, ehtiyatda olan polkovnik, keçmiş komandir Balay Nəsibov, Milli Aviasiya Akademiyasının dosenti Aqil Əsədov, energetik Arif Süleymanov, pedaqoq Sabir Mirzəyev mühasirə günlərinin canlı şahidləri Rizvan Rzayev, Şahlar Muradov və başqaları hər sətri ağrı-acı, göz yaşı ilə yazılmış kitabın Kəlbəcərin erməni işğalından sonrakı həyatına, erməni vandallarının törətdikləri qətliamları, qanlı cinayətləri əks etdirən tutarlı mənbə olduğunu qeyd ediblər.

Çıxış edənlər diqqətə çatdırıblar ki, müəllif yaxın tariximizin ağrılı səhifələrindən biri haqqında olduqca maraqlı bir kitab ərsəyə gətirib. Kitabın hər səhifəsi ürəkparçalayan, sinə dağlayan, heç cür soyuqqanlı oxumaq mümkün olmayan əhvalat və hadisələrlə doludur. Müəllif "Tanrı yoxuşu" kitabında uzun illər işğal altında qalan torpaqlarımızın düşmən tapdağından azad edilməsi ilə nəticələnən Vətən müharibəsində qazanılan şanlı Zəfərə və onun iştirakçılarına da yer ayırıb.

Sonda kitabın müəllifi Elxan Salahov çıxış edərək tədbirin təşkilinə görə Milli Kitabxananın rəhbərliyinə, həmçinin tədbirdə iştirak edən hər kəsə təşəkkürünü bildirib.

# "Leyli və Məcnun"un ilk tamaşasında səhnəyə çıxmışdı...

**"Şuşanın simaları"**

Şuşa şəhərinin yetirdiyi sənət adamları təkcə Qarabağ elində deyil, bütövlükdə ölkəmizdə mədəni həyatın inkişafına öz töhfələrini veriblər. "Şuşanın simaları" rubrikasında bu dəfə musiqişünas, görkəmli səhnə xadimi və pedaqoq Mirzə Muxtar (Məmmədov) haqqında söz açacağıq.

Mirzə Muxtar 1841-ci ildə Şuşada ustad tarzən kimi tanınan Mirzə Əli Əsgər Qarabağinin ailəsində dünyaya göz açıb. İlk təhsilini Şuşa mədrəsəsində alır, ərəb və fars dillərini öyrənir. Sonradan rus dilini də mənimsəyir. Şəxsi mütaliə yolu ilə Şərq və Azərbaycan klassik ədəbiyyatını dərindən öyrənir. Rus dilini bildiyi üçün XIX əsrin 60-cı illərində Şuşanın "Qış klubu"nda bu dildə səhnələşdirilən tamaşalara gedir. Bu tamaşalar onda teatr sənətinə maraq oyadır. Mirzə Muxtar 1870-ci ildə yerli ziyalıları ətrafına toplayıb Şuşa şəhərində M.F.Axundzadənin "Hacı Qara" komediyasını tamaşaya qoyur. Bu, ilk teatr tamaşası kimi şəhərin mədəni həyatında müsbət rol oynayır. O, 1873-cü ildə teatr həvəskarlarının köməyi ilə "Hacı Qara"nı yenidən səhnələşdirir.

Sənətkarın milli teatr tariximizdəki unudulmaz xidmətlərindən biri də səhnədə ilk dəfə qadın rolunda çıxış etməsidir. Onun səhnə fəaliyyətinin 40 illiyi ilə bağlı "Kaspi" qəzeti 9 may 1913-cü il tarixli nömrəsində yazıb: "Mirzə Muxtar Məmmədov müsəlman səhnəsinin ilk həvəskar artistlərindən biridir. O, birinci dəfə Şuşa şəhərində "Hacı Qara" pyesində oynayıb. Müsəlman səhnəsi üçün onun xidmətləri ona görə qiymətlidir ki, o zaman səhnədə oynamaq mürtədlik hesab olunurdu. Bu işə cəsarət edənlər dindarlar tərəfindən təqib olunurdu. Həm də o dövrdə qadın rolunda səhnəyə çıxmaq böyük qəbahət sayılırdı...".

Mirzə Muxtar 1870-1882-ci illərdə Şuşada göstərilən teatr tamaşalarının təşkilatçısı və iştirakçısı olub. Aktyor 1883-cü ildə Gəncəyə, sonra isə Tiflis şəhərinə köçür. Bir neçə il orada müəllimlik edir. Eyni zamanda yerli teatr həvəskarları ilə tamaşalar göstərir.

1899-cu ildə Bakıya gələn Mirzə Muxtar burada da bir müddət müəllimliklə məşğul olur. 1905-ci ildə pedaqoji fəaliyyətini dayandıraraq taleyini həmişəlik teatr sənətinə bağlayır. Üzeyir Hacıbəyli 1908-ci ildə "Leyli və Məcnun" operasının ilk tamaşasında Məcnunun atası obrazını ona həvalə edir. Bununla yanaşı, o, tamaşanın hazırlanmasında Üzeyir bəyin ən yaxın məsləhətçisi və köməkçilərindən biri olur. Həmin dövrdən Mirzə Muxtar opera səhnəsində fəaliyyətini davam etdirir. "Əsli və Kərəm"də Kərəmin atası, "Aşıq Qərib"də Xacə, "Şah İsmayıl"da Rəmmal, "Fərhad və Şirin"də Şapur rollarını yüksək sənətkarlıqla ifa edir.

Onun səhnə ifaçılığının pərəstişkarından biri də Üzeyir bəy olub. Əməkdar artist Cəlil bəy Bağdadbəyov xatirələrində yazır ki, "Leyli və Məcnun" tamaşası göstərilərkən Üzeyir bəy həyat yoldaşı Məleykə xanımla bir sırada oturardı. Mirzə Muxtarın ifasında Məcnunun atasının ariyasını hər dəfə maraqla dinləyərdi.



Mirzə Muxtar aktyor kimi milli səhnəmizlə yanaşı, qonşu ölkələrdə də opera və musiqili komediya tamaşalarında çıxış edib. O, fitri istedadı, məlahətli səsi və yüksək səhnə mədəniyyəti ilə tamaşaçıların dərin rəğbətini qazanıb. Onun sənət şöhrəti həm də muğamata, ümumilikdə musiqi elminə dərindən bələd olmasından qaynaqlanırdı. Ərəb, fars dillərini yaxşı bildiyindən qəzəlləri aydın, rəvan və düzgün tələffüz edib. Buna görə də dinləyici onun istər bəmdə, istərsə də zildə oxuduğu sözləri asanlıqla qavrayıb.

Araşdırmalarda göstərilir ki, Mirzə Muxtar tamaşaçıları öz ehtiraslı oyunu ilə ovsunlayarmış. Kimliyindən asılı olmayaraq, hər kəs səhnədəki hadisələrə qəlbən bağlanar və təsirlənərmiş. Təsadüfi deyil ki, 1913-cü ildə Bakının teatr ictimaiyyəti, milli teatr tariximizdə Mirzə Muxtarın müstəsna rolunu nəzərə alıb onun səhnə fəaliyyətinin 40 illik yubileyini keçirir. Dövri mətbuat bu əlamətdar hadisə haqqında elanlar verir. "Kaspi" qəzeti Mirzə Muxtarın şəkli ilə birgə verdiyi bir xəbərdə yazırdı: "Bu gün "Tağıyev teatrı"nda "Nicat" cəmiyyətinin təşəbbüsü ilə müsəlman səhnəsinin ən yaşlı və təcrübəli fədaisinin 40 illik səhnə fəaliyyəti bayram edilir. Bakı müsəlmanlarından kim Mirzə Muxtarı tanımır? Mirzə Muxtarı nəinki fədakar səhnə xadimi kimi, eyni zamanda onu təvazökar xalq müəllimi kimi də tanıyırlar. Bakının bir çox müsəlman ziyalıları onun yetirməsidir...".

Mirzə Muxtar 1919-cu ildə 78 yaşında səhnə ilə vidalaşır. Hacıbəyli qardaşlarının təşəbbüsü ilə Azərbaycan teatr mədəniyyəti tarixindəki xidmətləri nəzərə alınaraq ona ayda 500 manat təqaüd təyin edilir. Bundan sonra ömrünü musiqişünaslığa həsr edən sənətkar 7 yanvar 1929-cu ildə, 88 yaşında dünyasını dəyişir. O zaman "Kommunist" qəzetində dərc edilən nekroloqda yazılmışdı: "Türk səhnəsinin bütün ağırlıqlarını çiyinlərində keçirmiş, uzun ömrünün çox və dəyərli bir hissəsini bu səhnədə çalışmış ən qoca aktyor Mirzə Muxtar həyat səhnəsindən həmişəlik olaraq çəkildi...".

**Savalan Fərəcov**

# Tarixi abidə olan binanın fasadından məişət qurğuları sökülüb

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən tarix-mədəniyyət abidələrinin qorunması, onların bədii-estetik xüsusiyyətlərinə, ilkin simasına xələl gətirən, standartlara cavab verməyən reklam və məişət qurğularının yerləşdirilməsinin qarşısının alınması məqsədilə mütəmadi olaraq tədbirlər həyata keçirilir.

Görülən tədbirlər nəticəsində tarix-memarlıq abidələrinin fasadı, dam örtükləri və digər hissələrinə qanunsuz müdaxilələrin qarşısı alınır, tarixi abidələr ilkin görkəminə qaytarılır.

Bir müddət öncə Dövlət Xidməti Bakı Regional İdarəsinin əməkdaşları tərəfindən Nəsimi rayonu Bəşir Səfəroğlu küçəsi 174 ünvanında yerli əhəmiyyətli tarix-memarlıq abidəsi olan binanın fasad hissəsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" qanunun tələbinə zidd olaraq, məişət qurğularının yerləşdirildiyi aşkar edilib.

Bununla bağlı mülkiyyətçiyə dəfələrlə rəsmi müraciət edilsə də, yol verilmiş qanun pozuntusu aradan qaldırılmayıb, əksinə, əlavə müdaxilələr edilib.



Aprelin 11-də Dövlət Xidmətinin rəisi Azad Cəfərlinin rəhbərliyi ilə mütəxəssislərdən ibarət qrup həmin tarixi abidəyə yerində baxış keçirib və qanunsuz yerləşdirilmiş məişət qurğularının sökülməsi təmin edilib.

Abidələrin memarlıq üslubuna, xarici görkəminə və bədii-estetik xüsusiyyətlərinə xələl gətirəcək bu kimi hallara qarşı vətəndaşların, xüsusilə tarixi tikililərin xüsusi mülkiyyətçilərinin daha diqqətli olmaları tövsiyə edilir.

Qeyd edək ki, daha öncə Bakı şəhərində yerləşən tarix-memarlıq abidələrinə uzun illər ərzində edilmiş qanunsuz müdaxilələrin nəticələrinin aradan qaldırılması məqsədilə həyata keçirilən pilot layihə çərçivəsində 12 ünvanda yerləşən dövlət mühafizəsində olan abidələrin görkəmini korlayan reklam lövhələri və məişət qurğuları sökülüb.

**Fikrət Əmirov – 100**

# "Mənim yaradıcılıq xəmirim xalq musiqisi ilə yoğurulub"

Xalq musiqisi mədəni-mənəvi irsimizin ən vacib amillərindən biridir. O, xalqımızın ruhuna hopmuş və onun mənəvi dünyasında əbədi yer almışdır. Xalq musiqimizin tarixi elə xalqımızın tarixi qədər qədimdir. Öz düşüncələrini, hisslərini, arzu-istəklərini ürəyindən süzülüb gələn melodiyalarla ifadə edən insanlar xalq musiqimizin əsasını qoymuşlar. Dahi Üzeyir Hacıbəyli tərəfindən əsası qoyulan Azərbaycan bəstəkarlıq məktəbinin nümayəndələri öz yaradıcılıqlarını məhz xalq musiqisi üzərində qurmuş və çox dəyərli sənət əsərləri yaratmışlar.

Bu il 100 illiyi qeyd edilən Azərbaycan musiqi sənəti tarixinə parlaq səhifələr yazmış görkəmli bəstəkar, pedaqoq, ictimai xadim, SSRİ Xalq artisti Fikrət Əmirovun (1922-1984) yaradıcılığı musiqişünaslıqda həmişə maraq doğuran sahələrdən olmuşdur. Onun musiqisinin böyük şöhrət tapmasının əsas səbəblərindən biri dərin milli zəminə bağlılığıdır. Milli musiqi mədəniyyətinin ilk mənbələrinə yaxınlıq və folklor musiqisinin klassik formalara sintezi Fikrət Əmirovu Üzeyir Hacıbəyli ənənələrinin bilavasitə davamçısı kimi səciyyələndirməyə imkan verir. Fikrət Əmirovun hər zaman dediyi "Biz hamımız Üzeyir məktəbindən çıxmışıq" sözləri də bunun sübutudur. O, Üzeyir bəyin ənənələrini davam etdirməklə ölkəmizin musiqi mədəniyyətinin inkişafında böyük rol oynamışdır.

Fikrət Əmirovun xalq musiqisinə bağlılığının əsas mənbəyi onun doğulub boya-başa çatdığı mühitdən, ailəsindən başlayır. Azərbaycanın tanınmış musiqi xadimi olan Məşədi Cəmil Əmirovun evində böyüyən istedadlı bir uşağın xalq musiqisinə sevgisi və onu bütün təfərrüatı ilə mənimsəməsi təbiidir. Atasının və onun ətrafında cəmləşən məşhur xalq musiqiçilərinin Fikrət Əmirovun yaradıcılığında mühüm əhəmiyyəti olmuşdur. Bəstəkar bu mühiti xalq musiqisini mənimsəmək baxımından ən dəyərli məktəb hesab edirdi. Özünün də etiraf etdiyi kimi, tar və muğam onun ürəyinə uşaqlıqdan daxil olmuşdur. Evlərində tez-tez təşkil olunan musiqi məclisləri Fikrət Əmirovun püxtələşməsində böyük rol oynamışdır. Bu məclislərdəki ifalar onun musiqi zövqünün formalaşmasında böyük təsir göstərmiş, sonralar xalq musiqisinin gözəl bilicisinə çevrilməsi və yaradıcılığı üçün əsaslı zəmin olmuşdur. Xalq musiqisinin onun əsas ilham mənbəyi olduğunu bəstəkar lakonik şəkildə belə ifadə etmişdi: "Mənim yaradıcılıq xəmirim xalq musiqisi ilə yoğurulub".

Fikrət Əmirov xalqın musiqi dilini, musiqi təfəkkürünü elə dəqiqliklə dərk edirdi ki, onlar bəstəkarın öz üslubunun, musiqi dilinin elementlərinə çevrilirdi. Yeni xalq musiqisi bəstəkarın yaradıcılığında inkişaf etdirilərək dünya klassik musiqi ənənələri və müasir bəstəkarlıq texnikası ilə üzvi şəkildə birləşdirilir. Bəstəkar milli musiqi zəminində müasir əsərlər yaratmaq üçün iki mühüm amilin vacibliyini vurğulayırdı: xalq musiqisini dərindən bilmək və sevmək, müasir musiqi səviyyəsində dayanmaq. Bu iki cəhətin vəhdəti musiqinin inkişafı üçün, milli musiqinin ümumbəşəri mahiyyət əldə etməsi üçün yeganə yoldur. Xalq musiqisini "tükənməz ilham mənbəyi, sənətkara qüvvət verən dirilik çeşməsi" adlandıran Fikrət Əmirov hesab edirdi ki, əsl sənət əsəri doğma xalqının yaradıcılıq çeşməsindən qidalanmalı, bəhrələnməli və bununla da sənətkar və sənət doğma xalq qarşısında insani və vətəndaşlıq borcunu yerinə yetirməlidir.

Həmçinin, onun fikrincə, cəmiyyəti düşündürən mühüm məsələlərə vaxtında cavab vermək, bu günün qəhrəmanlarının səmimi hisslərini, təmiz duyğularını, böyük idealların musiqinin ecazkar dili ilə tərənnüm etmək bəstəkarın ümdə vəzifəsi olmalıdır.



Muğamlara və xalq musiqisinə yaradıcılıqla yanaşmağı, bununla belə, dünya klassik musiqisinin mütərəqqi prinsiplərinə əsaslanmağı, milli musiqimizin incəliklərini o, xalqımızın qüdrətli sənət korifeyindən – Üzeyir bəydən öyrənmişdi. O deyirdi ki, Üzeyir bəyin dahiliyi xalqımıza xas olan qəhrəmanlıq, vətənpərvərlik, insansevərlik kimi mühüm keyfiyyətləri xalqın öz ruhuna uyğun, xalqın özünə doğma olan bir musiqi dili ilə ifadə edə bilməsindədir.

Beləliklə, artıq sənətdə ilk addımlarından Fikrət Əmirov dərk etmişdi ki, Azərbaycan musiqi mədəniyyətinin inkişafının mühüm şərtlərindən biri yaradıcılıqda xalq musiqisinə dayaqlanmaqdan ibarətdir. Sonralar öz məqalələrində dönə-dönə bu məsələyə qayıtmışdır. O, Ü.Hacıbəylinin yolunu davam etdirərək xalq musiqisindən yaradıcılıqla bəhrələnməyi təbliğ edirdi. Özü də Üzeyir bəyin tövsiyə etdiyi kimi, xalq üçün, həm professionala, həm də ən geniş dinləyici kütləsinə eyni dərəcədə anlaşıqlı olan bir musiqi dilində əsərlər yazmaq yolunu tutmuşdu. Buna görə də onun əsərləri xalqımıza bu qədər yaxın və doğmadır. Onun əsərlərində hətta bizə tanış olan xalq melodiyalarını eşitsək də, onları məhz bəstəkarın görümündə qavrayırıq. Xalq musiqisini özünün yaradıcılıq süzgəcindən keçirən bəstəkar onların üzərində zərgər kimi işləyərək aşılayır. Heç bir halda xalq musiqisini təqlid etməyərək sanki onları yenidən yaradır, yeni ruh verir. Sözsüz ki, bu, əsl novatorluqdur.

Qara Qarayevin Fikrət Əmirovun xalq musiqisindən istifadə üsulları haqqında dəyərli bir fikrini diqqətə çatdırmaq istərdik: "Fikrət Əmirov xalq mahnı və rəqslərinə çox qayğı ilə yanaşır, o, demək olar ki, melodiyanı dəyişməz şəkildə saxlayır, lakin onu incə harmoniyalarla, rəngarəng orkestr boyaları ilə toxunmuş gözəl çərçivəyə salır, yeni folklor üçün genetik cəhətdən səciyyəvi olmayan elementlərdən istifadə edir".



Bu fikrin davamı olaraq, qeyd etmək istərdik ki, Fikrət Əmirov həmişə milli ənənələrə sadiq bir bəstəkar olmuşdur və bu, onun musiqi üslubunun bütün cəhətlərində – lad, melodiya, polifoniya, harmoniya, ritm, tembr, quruluş və orkestrləşmədə özünü büruzə verir. Yeri gəlmişkən, bəstəkarın yaradıcılığında "melodiyanın dəyişməzliyi" faktını görkəmli rus bəstəkarı D.Şostakoviç də etiraf etmiş, "Fikrət Əmirov musiqisinin canı melodiyadadır" demişdir.

Fikrət Əmirov klassik musiqi ənənələrinə də bu prizmadan yanaşmışdı. Bəstəkar bu haqda yazırdı: "Zahirən elə görünür ki, milli ənənələr professional musiqi mədəniyyəti ilə ziddiyyət təşkil edir. Lakin bu ziddiyyətdə qeyri-adi harmoniya və ahəngdarlıq mövcuddur. Yalnız bu iki mədəniyyəti yaxşı bilmək və onları qovuşdurmağı bacarmaq lazımdır". Sənətkar əsərlərində bu vəhdəti böyük ustalıqla yaratdığına görə seçilir və sevilir.

Fikrət Əmirovun ən böyük xidməti həm də ondan ibarətdir ki, o, ənənəvi professional bəstəkarlıq prinsiplərini şifahi ənənəli musiqiyə tətbiq edərək milli musiqinin imkanlarını genişləndirməyə nail olmuşdur. Buna görə də Fikrət Əmirovun musiqisi xüsusilə Şərq və Qərb musiqi mədəniyyətlərinin qovuşması, yaxınlığı kontekstində böyük əhəmiyyət kəsb edir. Bəstəkarın xalq musiqisi ilə necə təmasda



olması onun bütün əsərlərində özünü göstərir. Yaratdığı musiqi nümunələri nə qədər müasir texniki üslublarda olsa da, milli kökdən uzaq deyil.

***

Onu da qeyd edək ki, konservatoriyada oxuduğu illərdə Fikrət Əmirov Bülbülün rəhbəri olduğu "Elmi tədqiqat musiqi kabineti" ilə yaxından əməkdaşlıq edərək xalq mahnılarının toplanmasında, nota yazılmasında da fəal iştirak etmişdir. O, yüzdən artıq xalq mahnısını nota yazmış və onlardan bir çoxu Bülbülün redaktəsi ilə nəşr olunmuş "Azərbaycan xalq mahnıları" məcmuəsində yer almışdır. Bu işi Fikrət Əmirov sonralar da davam etdirmiş, görkəmli xanəndələrin ifasından muğamları nota salmış, bu da onun yaradıcılığı üçün əsl xammal olmuşdur. Bəstəkar yaradıcılıq nailiyyətlərində Bülbülün də böyük rolu olduğunu bildirmiş, dahi müğənnini Azərbaycan musiqisi haqqında dərin, mənalı bir kitaba bənzətmiş, onu "əsərlərinin ən yaxşı dostu, məsləhətçisi və köməkçisi" adlandırmışdı.

Fikrət Əmirov musiqi folklorunun toplanılmasını ümumxalq işi hesab edərək yazırdı: "Musiqi folklorumuzu toplamaq, nəşr etdirmək, onlardakı sadəliyin, güclü emosiyanın sirlərini öyrənmək böyüklü-kiçikli hamımızın əsas vəzifəmiz olmalıdır". Yeri gəlmişkən, onu da qeyd etməliyik ki, bəstəkarın atası Məşədi Cəmil Əmirov da bu işdə müəyyən xidmətlər göstərmişdir. Belə ki, 1915-ci ildə İstanbulda nəşr olunan jurnalda o, "Heyratı" zərbi-muğamının not yazısını vermiş və buna bənzər daha bir neçə yazıları olmuşdur.

Fikrət Əmirov 1950-ci illərdə görkəmli xanəndə Rəşid Behbudovla birlikdə xalq mahnılarını işləyərək bir toplu hazırlamışdır. Topludakı xalq mahnıları ilə bu sıx əlaqənin bəstəkarın yaradıcılığına necə böyük təsir etdiyini görmək olur. Bu haqda bəstəkar yazır: "İş prosesində mən xalq mahnılarının tükənməz imkanlarını dərindən hiss etdim. Bildim ki, eyni mahnı bəstəkarın niyyətindən asılı olaraq ən gözlənilməz rakurslarda açıla bilər, ən müxtəlif kontekstlərə tabe ola bilər. Bunu da bildim ki, mahnını sən seçmirsən, mahnı səni seçir. Əgər sən mahnını işləməyə hazır deyilsənsə, onun qanunlarından bixəbərsənsə, onun misilsiz gözəlliyinə biganəsənsə – ən yaxşısı, bu işə girişməməkdir. Çünki mahnını işləmək haqqını qazanmaq lazımdır. Əks təqdirdə eybəcər şəklə düşəcək xalq mahnısı səndən intiqam alar...". Sənətkarın bu fikirləri həm də özündən sonra gələn bəstəkarlar nəslinə bir tövsiyədir, xalq mahnılarını necə sevmək və necə qorumaq baxımından örnəkdir.

Mahnıların böyük əksəriyyətində Fikrət Əmirov xalq musiqisi janrlarına səciyyəvi olan parlaq obrazları, milli keyfiyyətləri daha aydın şəkildə əks etdirməyə çalışıb. Məsələn, "Toy", "Laylay" mahnıları buna misal olduğu kimi. Bununla yanaşı, Bəstəkar mahnıların obrazlarını yeni ifadə vasitələri ilə müasirləşdirir. Bu, xalq musiqisindən gələn intonasiyaların xüsusi rəngarəngliyi, sadəliyi və eyni zamanda melodik üslubun bütövlükdə parlaq fərdiliyi ilə əlaqədardır. Müəllifin mahnılarında melodiyaların əksəriyyəti həm də rəqs əhvallıdır. İncə, şux, çox vaxt yumoristik obrazlar dəqiq ritmlidir, kiçik fraza və motivlərə çox asanlıqla bölünür. Bəstəkarın musiqisinin bir çox mahnıvarı epizodlarında Azərbaycan havalarının intonasiya inkişafının mühüm keyfiyyətləri əksini tapmışdır. Məhz buradan da xalq mahnı melodiyaları ilə melodik şəklin və pərdələrin lad funksiyalarının ilk ayrılmaz vəhdəti meydana gəlir.

Sənətkarın yaradıcılığında xalq mahnılarının işlənmələri xüsusi bir mərhələdir. Xalq musiqisinin qanunauyğunluqlarına yaxından bələd olan bəstəkar onları incə bir şəkildə səs və müşayiət üçün işləmişdi. Buna misal olaraq "Evləri var xana-xana", "Küçələrə su səpmişəm" xalq mahnılarını göstərə bilərik. Əlbəttə, məsələ ancaq xalq mahnılarını işləməkdə deyil. Azərbaycan bəstəkarları xalq ladlarına, ritmlərinə əsaslanan, xalq mahnılarının ətrini canına toplayan operalar və simfoniyalar, xor əsərləri və kamera mahnıları da yazmışlar. Onlar xalq sənətkarlarının təcrübəsindən istifadə edərək ruhən, üslubca xalq mahnılarına yaxın olan vokal əsərləri bəstələmişlər. Belə əsərlərdən bəzisi öz müəllifini itirərək xalq mahnısı kimi yaddaşlarda yaşamaqdadır. Fikrət Əmirovun da bir çox mahnıları məhz bu qəbildəndir. Fortepiano və səs üçün işlənən bu və ya digər xalq mahnıları öz orijinallığını saxlayaraq bəstəkarın musiqi təfəkkürü ilə üzvi şəkildə qovuşub əsl professional sənət nümunəsinə çevrilmişdir. Bu da bəstəkarın xalq mahnılarını işləyərkən onların üstündə çox məsuliyyətlə çalışmasından xəbər verir.

Beləliklə, Fikrət Əmirov təxəyyülü, düşüncəsi xalq musiqisindən ayrılmazdır. Sənətkarın böyük istedadının əsas qüvvəsi məhz onun xalq musiqisinə dərindən bağlılığı ilə izah olunur. O, zəngin irsində həm xalq musiqisindən çox müfəssəl bəhrələnmiş, həm də onun təbliğində müstəsna rol oynamışdır. Bəstəkarın ölməz musiqisi, yaratdığı şah əsərlər Azərbaycan xalqının mədəni sərvəti olaraq həmişə yaşayacaq və öz müəllifini də əbədi yaşadacaq.

**Jalə Qulamova**
**AMK-nın kafedra müdiri, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent**

## Xatirə təqvimi — 16-19 aprel

### Azərbaycan

**16 aprel 1913** – Əməkdar artist Kərim Xankişi oğlu Sultanov (1913-1975) Tovuz rayonunda doğulub. Gəncə Dövlət Dram Teatrının aktyoru olub.

**16 aprel 1916** – Əməkdar incəsənət xadimi, bəstəkar Qəmbər Muxtar oğlu Hüseynli (1916 – 1.8.1961) anadan olub. Məşhur "Cücələrim" mahnısının (sözləri - Tofiq Mütəllibov), "Ay işığında", "Gecələr uzanaydı", "Düşür yadıma" və s. populyar mahnıların müəllifidir.

**16 aprel 1934** – Xalq artisti, bəstəkar Ramiz Aqil oğlu Mirişli (1934 – 17.4.2015) Naxçıvanda doğulub. Musiqili komediyalar ("Gəl, qohum olaq", "Amerikalı kürəkən"), simfonik əsərlər, mahnılar ("Oxu, tar", "Dalğalar", "Bayram axşamları" və s.), "Alma almaya bənzər", "Qəzəlxan" və s. filmlərə musiqi yazıb.

**16 aprel 2020** – Xalq artisti Rafiq Hacıbaba oğlu Əliyev (14.11.1949 – 2020) vəfat edib. Dövlət Gənc Tamaşaçılar Teatrında aktyor, rejissor kimi fəaliyyət göstərib, filmlərdə ("Qəm pəncərəsi", "Qətl günü", "Hökmdarın taleyi" və s.) çəkilib.

**16 aprel 2021** – Xalq artisti, Dövlət mükafatı laureatı, kinorejissor, ssenarist Eldar Tofiq oğlu Quliyev (18.1.1941 – 2021) vəfat edib. "Bir cənub şəhərində", "Sevinc buxtası", "Babək", "Gümüşgöl əfsanəsi" və s. filmlərə quruluş verib. Mədəniyyət və İncəsənət Universitetinin professoru olub.

**17 aprel 1884** – Bəstəkar, Əməkdar incəsənət xadimi Zülfüqar Əbdülhüseyn oğlu Hacıbəyov (1884 – 30.9.1950) anadan olub. Dahi bəstəkar Üzeyir Hacıbəylinin böyük qardaşıdır. "Aşıq Qərib" operasının, "Əlli yaşında cavan" musiqili komediyasının müəllifidir.

**17 aprel 1899** – Türkoloq, şərqşünas Əhməd Cəfəroğlu (Əhməd İsmayıl oğlu Cəfərzadə; 1899 – 6.1.1975) Gəncədə doğulub. Azərbaycanın sovetləşməsindən sonra Türkiyəyə gedib. İstanbul Universitetinin professoru olub, "Azərbaycan yurd bilgisi" dərgisini nəşr etdirib.

**17 aprel 1924** – Kinoşünas və teatrşünas, sənətşünaslıq elmləri doktoru Sabir Əkbər oğlu Rzayev (1924-1978) İrəvanda doğulub. Ermənistan Elmlər Akademiyası İncəsənət İnstitutunun direktor müavini olub.

**17 aprel 1928** – Milli vokal sənətinin görkəmli nümayəndəsi, SSRİ Xalq artisti Lütfiyar Müslüm oğlu İmanov (1928 – 22.1.2008) Sabirabad rayonunda doğulub. Opera və Balet Teatrında baş partiyaları ifa edib, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru olub.

**17 aprel 2009** – Xalq yazıçısı Sabir Məhəmməd oğlu Əhmədli (10.7.1930 – 2009) vəfat edib. "Pillələr", "Toğana", "Yasamal gölündə qayıqlar üzür", "Mavi günbəz", "Gedənlərin qayıtmağı", "Dünyanın arşını", "Axirət sevdası" və s. kitabların müəllifidir.

**17 aprel 2015** – Xalq artisti, bəstəkar Ramiz Aqil oğlu Mirişli (16.4.1934 – 2015) vəfat edib.

**18 aprel 1873** – Tanınmış xanəndə Məcid Behbudalı oğlu Behbudov (1873 – 6.9.1945) Şuşada anadan olub. Bakıda, Gəncədə opera tamaşalarında çıxış edib. 30-cu illərdə İrəvanda, sonra Qazaxda yaşayıb, orada vəfat edib. Böyük müğənni Rəşid Behbudovun atasıdır.

**18 aprel 1897** – Azərbaycanın ilk professional qadın müğənnisi, SSRİ Xalq artisti Şövkət Həsən qızı Məmmədova (1897 – 8.6.1981) Tiflisdə doğulub. Milan Konservatoriyasında təhsil alıb. 1923-cü ildə Bakı Teatr Məktəbinin (indiki Mədəniyyət və İncəsənət Universiteti) yaradıcılarından olub. Azərbaycan Dövlət Konservatoriyasının professoru olub.

**18 aprel 1941** – Teatr rəssamı Solmaz Manaf qızı Haqverdiyeva (1941-2000) Bakıda anadan olub. Akademik Milli Dram, Kukla, Gənclər teatrlarında işləyib.

**18 aprel 1991** – Əməkdar incəsənət xadimi, tanınmış şair Tofiq Qulam oğlu Bayram (16.12.1934 – 1991) vəfat edib. Kitabları: "Səninlə görüşəndə", "Könlümdə yaşayanlar", "Ay gecikən məhəbbətim" və s.

**19 aprel 1905** – Məşhur memar, Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı, akademik Mikayıl Ələsgər oğlu Hüseynov (1905 – 7.10.1992) Bakıda doğulub. Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Milli Kitabxana, AMEA-nın binası, Bakı Musiqi Akademiyası və s. tikililərin layihə müəllifidir.

**19 aprel 1907** – Xalq artisti, bəstəkar, dirijor, musiqişünas-alim Əfrasiyab Bədəlbəy oğlu Bədəlbəyli (1907 – 6.1.1976) Bakıda anadan olub. İlk Azərbaycan baletinin ("Qız qalası", 1940), musiqi tariximizə dair kitabların müəllifidir.

**19 aprel 1920** – Yazıçı-dramaturq Xalidə Məmməd qızı Hasilova (1920 – 5.12.1996) Zaqatalada anadan olub. "Nəğməli könül", "Məhəbbət olmayanda", uşaqlar üçün "Lalənin kitabı", "Atlas yarpaqları" və s. kitabların müəllifidir.

**19 aprel 1927** – Əməkdar artist Tamara Nuran qızı Məmmədova (1927-2000) Naxçıvanda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisası olub.

**19 aprel 1954** – Tanınmış rejissor, aktyor Rövşən Əziz oğlu Almuradlı (1954 – 2.4.2019) Bakıda doğulub. Şəki, Sumqayıt, Mingəçevir, Akademik Milli Dram teatrlarında tamaşalara, "Yük" "Cavad xan" filmlərinə quruluş verib.

### Dünya

**16 aprel 1844** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1921) laureatı Anatol Frans (Anatole France - François-Anatole Thibault; 1844-1924) anadan olub. Əsərləri: "Müasir tarix" silsilə romanları, "Mələklərin üsyanı" və s.

**16 aprel 1889** – İngilis aktyoru, rejissor Çarli Çaplin (Charles Spencer Chaplin; 1889-1977) Londonda doğulub. 1910-1940-cı illərdə ABŞ-da yaşayıb, 1952-ci ildə İsveçrəyə (Cenevrə) köçüb. Filmləri: "İt həyatı", "Uşaq", "Qızıl hərisliyi", "Böyük diktator", "Sirk" və s. 1972-ci ildə fəxri "Oskar"a layiq görülüb.

**16 aprel 1924** – Amerika bəstəkarı və dirijoru Henri Mançini (Enrico Nicola Mancini; 1924-1994) anadan olub. 4 dəfə "Oskar" mükafatına layiq görülüb.

**17 aprel 1894** – Rus aktyoru, SSRİ Xalq artisti Boris Vasilyeviç Şukin (1894-1939) anadan olub. Moskva Teatr Məktəbi aktyorun adını daşıyır.

**17 aprel 1897** – Norveç bəstəkarı Harald Severud (1897-1992) anadan olub. Əsərləri: "Ehtiraslı rondo", "Etiraz balladası" və s.

**18 aprel** Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür. 1983-cü ildə UNESCO yanında Abidələrin və Tarixi Yerlərin Mühafizəsi üzrə Beynəlxalq Şuranın (İCOMOS) təşəbbüsü ilə təsis edilib.

**18 aprel 1819** – Avstriya bəstəkarı və dirijoru Frans fon Zuppe (Franz von Suppe - əsl adı Francesco Suppe Demelli; 1819-1895) anadan olub. "Gözəl Qalateya", "Bokaçço" operalarının müəllifidir.

**18 aprel 1917** - SSRİ Xalq artisti Georgi Vitsin (1917 – 22.10.2001) anadan olub. Filmləri: "Qafqaz əsiri", "İ əməliyyatı...", "Uğur centlmenləri", "Balzaminovun evlənməsi" və s.

**19 aprel 1832** – İspan dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1904) Xose Eçerqay-i-Eysagirre (José Echegaray y Eizaguirre; 1832-1916) anadan olub. 60-dan çox dram əsərinin yarısını nəzmlə yazıb.

**19 aprel 1900** – İngilis yazıçısı, şair, dramaturq Riçard Hyuz (Richard Arthur Warren Hughes; 1900-1976) anadan olub. İlk radiopyeslərin müəllifidir.

**Hazırladı: Vüqar Orxan**

